

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Vətənə daş, torpağa qardaş, ölkəyə vətəndaş olduq!



8

№ 177 (7102)

27 sentyabr 2024-cü il.
Qiyməti 60 qəpik

## "Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib"



2

**İqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib, Prezident İlham Əliyev müşavirədə çıxış edib**

# Azərbaycanı Zəfərə, Qələbəyə aparan tarixi gün!

*27 Sentyabr Azərbaycan Respublikasında Anım Günüdür*



3

### Bilgəhdə sahilyanı təmizlik aksiyası keçirilib



4

### Ermənistanı fəlakətə sürükləyən AMERİKA-FRANSA QAYDALARI



6

### "44 günün hər günü Azərbaycanın şanlı tarixidir"




13

### Elektrikli diş fırçası: ZƏRƏR VƏ FAYDALARI



14

### Taksi tapmaq niyə bu qədər çətinləşib?




16

# “Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib”

## İqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib, Prezident İlham Əliyev müşavirədə çıxış edib

*Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib. Prezident İlham Əliyev müşavirədə çıxış edib.Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir:*

”Bugünkü müşavirədə biz iqtisadi məsələləri müzakirə edəcəyik. İlin sonuna cəmi üç ay vaxt qalır. İlin sonuna qədər görüləcək işlər haqqında da fikir mübadiləsi aparılacaq.

Bütövlükdə deməliyəm ki, ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. İlin əvvəlində mən bu ilin iqtisadi sahədə uğurlu olub-olmaması haqqında danışanda qeyd etmişdim ki, tam əminəm, bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər mənim sözlərimi təsdiqləyir. İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Onu da bildirməliyəm ki, son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yaqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.



**İlham Əliyev: "İlin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir"**



Ancaq təbii olaraq, bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir. Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə, hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik. Bu yaxınlarda Azərbaycan Milli Məclisində etdiyim çıxışda bütün o rəqəmlər diqqətə çatdırılmışdır. Təkrar etmək istəmirəm, son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldı.

Yəni, bütün bu məsələlər tam əminliklə deməyə əsas yaradır ki, iqtisadi inkişaf templəri həm bu ilin sonuna qədər saxlanılacaq, həm də, - nəzərə alsaq ki, indi gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq, - gələn il də iqtisadi inkişaf templəri lazımi səviyyədə olacaq.

Xarici sərmayələrin cəlb olunması üçün, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda, Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. Baxmayaraq ki, Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir davam edir, hökm sürür. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və biz bunun bəhrəsini indi görürük. Bizim ənənəvi sənaye məntəqələrimizdə, - Bakı şəhəri, Sumqayıt şəhəri, sənaye parkları, - yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.



**Prezident: “Bizim əsas hədəfimiz dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir”**

Qeyd etdiyim kimi, indi gələn ilin büdcəsinin müzakirəsi gedir, yaxın vaxtlarda mənə təqdim ediləcək. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Biz, necə deyərlər, ayaqlarımızı yorğanımıza görə uzadırıq və uzatmalıyıq. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə artıq uğurla yerinə yetirilir. Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Bu gün onu da biz müzakirə edəcəyik, baxarıq, bəlkə də bəzi borcları vaxtından əvvəl ödəmək də faydalı ola bilər. Halbuki mən bunu artıq bir neçə dəfə demişəm ki, istəsək, biz bir gün ərzində bütün borcu sıfırlaya bilərik. Hər halda, bu məsələni müzakirə etmək üçün bu gün, əlbəttə ki, fikir mübadiləsi aparılacaqdır.

Gələn ilin əsas xərcləri artıq müəyyən edilib. Mənim Milli Məclisdəki çıxışımda əsas prioritetlər açıq-aydın göstərilib. İlk növbədə, ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr. Həm sosialyönümlü layihələr, sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr - bütün bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Bu barədə də danışacağıq. Elə etməliyik ki, biz gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək. Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq.

Bu gün biz bir çox digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, müzakirə və əldə edilmiş nəticələr, qəbul ediləcək qərarlar bizim iqtisadi inkişafımızı daha da sürətləndirəcəkdir.”

Sonra gələcək iqtisadi inkişafla bağlı müzakirələr olub.

# Azərbaycanı Zəfərə, Qələbəyə aparan tarixi gün!

*27 Sentyabr Azərbaycan Respublikasında Anım Günüdür*




Bu gün xalqımız, milyonlarla insan İkinci Vətən müharibəsində qazandığımız Zəfəri böyük iftixar hissi ilə yaşayır. Bu qürurverici bir məqamdır. İkinci Qarabağ müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan ordusu düşmənə elə bir dərs verdi ki, bu dərs bütün tarixi boyu yaddan çıxmayacaq. 27 Sentyabr 2020-ci il tarixində başlanan müharibə 44 gün ərzində Qələbə ilə sona çatdı. Azərbaycanın 30 ilə yaxın bir zamanda işğal altında olan torpaqları işğaldan azad olundu. Bu torpaqların işğaldan azad olunması Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycanın Müzəffər Ordusunun gücü ilə reallığa çevrildi. Bu torpaqların azad olunması yolunda minlərlə vətən oğlu şəhid oldu. Qanları ilə torpaqlarımızı işğaldan azad etdilər.

İkinci Qarabağ müharibəsinin şəhidləri xalqımızın qəlbində yaşayır. Bu gün ölkəmizdə İkinci Qarabağ müharibəsinin başlandığı gün Anım Günü kimi qeyd olunur. Bu gün Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan hərbi təcavüzünə cavab olaraq, işğal altındakı torpaqların azad edilməsi məqsədilə Vətən müharibəsinin başladığı gündür. Azərbaycan Respublikasında 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncama əsasən qeyd edilir. Azərbaycan dövləti və xalqı Vətən müharibəsində iştirak etmiş mübariz oğulların, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir. Həmin tarix heç vaxt yaddaşlardan silinməyəcək. Bu bizim qürür günümüzdür. Azərbaycanı Zəfərə, Qələbəyə aparan tarixi gündür.



27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplısilahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdular. Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edildi. Bu Azərbaycan reallıqlarıdır. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlandı və İkinci Qarabağ müharibəsinə çevrildi. 44 gün davam edən müharibədə Azərbaycan hər gün qələbə sevincini yaşadı. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Dövlət başçısı çıxışında "44 günlük müharibə Azərbaycanın tam Qələbəsi ilə nəticələndi", - deyə bildirib: "44 günün hər bir günü qəhrəmanlıq dastanı idi, hər bir gündə biz şəhidlər verirdik, qan tökürdük və irəliyə gedirdik. Hər gün biz irəliyə gedirdik. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq irəli gedirdik, şəhidlər verərək, qan tökərək, xalqımız birləşərək və biz birləşib bu Qələbəni şərtləndirdik".

## "DÜNYANIN APARICI HƏRBİ MƏKTƏBLƏRİNDƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏKİ ƏMƏLİYYATLARIMIZ, BİZİM UĞURLARIMIZ, QƏLƏBƏMİZ ÖYRƏNİLİR"

Xüsusi olaraq qeyd edək ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. "2018-ci ildə Ermənistanda hərbi cinayətkarlar Köçəryan-Sarkisyan rejimi devrildi", - deyən Azərbaycan Prezidenti bizim Ermənistanın yeni hökumətinin ciddi şəkildə danışıqlarda iştirak edəcəyi ilə bağlı müəyyən ümidlərimizin olduğunu bildirib: "Biz Ermənistandan gələn istənilən müsbət siqnala cavab verməyə hazır idik. 2018-2019-cu illər keçmiş təmas xəttində ən sakit dövrlərdən biri idi. Lakin Azərbaycanın müsbət addımlarına baxmayaraq, Ermənistanda rejimin dəyişməsi real dəyişikliklərlə nəticələnmədi. Ermənistanın yeni hökuməti də Azərbaycanla dinc qonşuluq əvəzinə, işğalın davam etdirilməsi yolunu seçdi. Münaqişənin son iki ili ərzində Ermənistan qəsdən danışıqlar prosesini məhv etdi. Ermənistan hökuməti "Qarabağ Ermənistandır və nöqtə" və "bir qarış belə işğal olunmuş torpaq qaytarılmayacaq" kimi bir sıra təxribatçı bəyanat və hərəkətlərə yol verdi".

Dövlət başçısı beynəlxalq tribunalardan respublikamızın münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildirsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərirdi. Xatırlatmaq yerinə düşərdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. "Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır", - deyən Azərbaycan Prezidenti bildirib ki, beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir: "BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır".

Qısa bir məsafədə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək, 30 ilə yaxın zamanda işğal altında qalmış torpaqlarını erməni təcavüzkarlarından azad etdi. 44 günlük müharibə ərzində Azərbaycan işğal olunmuş ərazilərinin böyük bir hissəsini, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini azad etdi. Ümumilikdə, döyüş meydanında 300-dən çox şəhər və kənd azad edildi. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən - Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi.

"Mənfur düşmənin əlində əlverişli mövqelər olmasına, relyefin onlara böyük üstünlük verdiyinə, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurduğuna baxmayaraq onlar geri getməyə məcbur oldular. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmayıb. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olub", - deyə Prezident bildirib.

44 gün ərzində ordumuz böyük bir döyüş yolu keçdi. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi: "Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir".

## "DƏMİR YUMRUQ" YENƏ QILINC KİMİ BAŞLARININ ÜZƏRİNDƏDİR"

Azərbaycanın Vətən müharibəsindəki qələbəsi onun şanlı səhifəsinə yazılıb. Müzəffər Ali Baş Komandanın dediyi kimi, "Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır. Bəli, başqa yolları, çarələri yoxdur. Əks təqdirdə, "dəmir yumruq" yenə qılınc kimi başlarının üzərindədir və hər an yenidən işə düşə, sarsıdıcı zərbəsini endirə bilər".

Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edərək, həmin ərazilərdə üçrəngli bayrağını dalğalandırdı. 30 illin həsrətinə, ağrı və acısına son qoyuldu. Bu gün bu qələbəni bizlərə yaşadan şəhidlərimizin ruhu qarşısında baş əyirik. Onlar Azərbaycanın yeni tarixini yazdılar və adları tariximizə əbədi həkk olundu. "Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi", - deyə dövlətimizin başçısı qeyd edib.

44 günlük Vətən müharibəsinin milli iradə, milli ruh, milli ləyaqət təntənəsi olduğunu vurğulayan Prezident deyib: "Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı".

Bu tarixi Qələbə ilə Azərbaycan xalqı düşməndən qisas aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Heç şübhəsiz, tarixi Zəfərin qazanılmasında xalqımızın milli həmrəylik, eləcə də ölkəmizdə fəaliyyət göstərən siyasi qüvvələrin birlik nümayiş etdirərək Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyinə birmənalı dəstək göstərməsinin mühüm rolu var. Vətənin bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlər, arxa cəbhədə çalışan mülki şəxslər, ümumilikdə, Azərbaycan xalqı cəsarət və qətiyyət göstərərək, bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdi. Bu gün öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etmiş Azərbaycan regionda yeni reallıqlar yaratmışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Bilgəhdə sahilyanı təmizlik aksiyası keçirilib

***Sentyabrın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və digər ailə üzvlərinin, eləcə də IDEA könüllülərinin iştirakı ilə çimərlik mövsümünün bitməsi ilə əlaqədar sahilyanı təmizlik aksiyası keçirilib.***

AZƏRTAC xəbər verir ki, COP29 çərçivəsində keçirilən aksiya Bilgəhdə ictimai çimərlik ərazisində təşkil edilib. İməcilik zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçılarının topladıqları 2 tona yaxın tullantı "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

"Sahillər təmiz qalsın!" şüarı altında keçirilən aksiyanın əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və insanları dənizətrafı mühitin mühafizəsi uğrunda səylərə cəlb etməkdir.













Qeyd edək ki, Xəzər dənizinin və Qafqaz regionunun digər su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsinə və bərpasına yönəlmiş müntəzəm tədbirlər təşkil edir.

IDEA İctimai Birliyi hamını bir daha planetimizin qarşılaşdığı çoxsaylı problemlərin həlli, indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə və hərəkətə keçməyə, təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşmağa çağırır.

# Arzu Erdem: "Makronun açıqlamaları Qərbin ikiüzlülüyünə qarşı Türk dünyasının nə qədər haqlı olduğunu bir daha sübut etdi"

***Ötən gün Nyu-Yorkda BMT kürsüsündən Ermənistanın lehinə danışan Fransa Prezidenti Emmanuel Makron bir daha Qərbin Türk dünyasına qarşı düşmənçilik münasibətini göstərdi. Makronun Azərbaycanı "təzyiq göstərən" kimi qələmə verən sözləri yalnız Ermənistanın tarixi arzularını dəstəkləmədi, eyni zamanda, Qərbin türklərə qarşı uzun illər davam edən mövqeyini bir daha nümayiş etdirdi.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk siyasətçi, Milliyyətçi Hərəkat Partiyasının (MHP) Türkiyə Böyük Millət Məclisindəki sabiq deputatı Arzu Erdem ifadə edib.



O deyib: "Azərbaycanın Qarabağda apardığı haqlı mübarizəsinin davam etdiyi bir dövrdə bu sözlər tarixin bir daha təkrarlandığını bizə göstərdi. Fransanın Ermənistanı illərdir silahlandıraraq və siyasi sahədə dəstəkləyərək bölgədə gərginliyi artırdığı aşkardır. Makronun "Ermənistanın sərhədlərinin qorunması" çağırışı, əslində, Fransanın ikili standartlara əsaslanan xarici siyasətini əks etdirir. Fransa imperialist keçmişindən qalan vərdişləri ilə bölgədə Türkiyə və Azərbaycanın haqlı mübarizəsini gözardı edərək, ədalətsiz mövqe sərgiləməkdədir".

Fransanın xüsusilə İkinci Qarabağ müharibəsindən sonra Ermənistana silah tədarükünü intensivləşdirdiyini qeyd edən siyasətçi deyib ki, Ermənistanın hava hücumundan müdafiə sistemləri və artilleriya qüvvələri rəsmi Parisin yardımı ilə gücləndirilir. Eyni zamanda, 2019-2022-ci illər arasında Ermənistana təxminən 65 milyon dollar dəyərində silah və hərbi avadanlıq satışı həyata keçirilib. Bu qatı müharibə siyasəti ilə kifayətlənməyən Fransa və İrəvanı dəstəkləyən digər Qərb dövlətləri Ermənistanın hava hücumundan müdafiəsini gücləndirmək üçün bu ölkəyə radar sistemləri verib ki, onların da əsas hədəfi Türkiyə istehsalı İHA/SİHA-lardır. Halbuki Azərbaycan tarixən və hüquqi cəhətdən özünə məxsus Qarabağ torpaqlarında öz suverenliyini möhkəmləndirib və bu proses beynəlxalq hüququn normalarına uyğun aparılıb. Makronun birtərəfli və əsassız açıqlamaları isə Fransanın uzun müddətdir Ermənistana olan rəğbətini və dəstəyini bir daha nümayiş etdirdi.

Siyasi şərhçi bildirib ki, Fransanın sülh və sabitlikdən uzaq, əksinə, bölgəni daha çox münaqişəyə çəkən bu mövqeyi yalnız Azərbaycan üçün deyil, eyni zamanda, bütün Türk dünyası üçün təhdiddir. Fransa rəhbərinin bu cür fikirləri Qərbin Türk dünyasına qarşı tarixi qərəz və düşmənçiliyini hər fürsətdə nümayiş etdirməsinin aydın sübutudur. "Unutmaq olmaz ki, Türkiyə-Azərbaycan qardaşlığı, sadəcə, sözdə deyil, bu bağ "Bir millət, iki dövlət" anlayışı ilə hər sahədə güclənməkdə davam edir. Makronun açıqlamaları Türkiyə və Azərbaycanı daha da yaxınlaşdıraraq Qərbin ikiüzlülüyünə qarşı Türk dünyasının nə qədər haqlı olduğunu bir daha sübuta yetirdi. Azərbaycanın bu mübarizəsi təkcə öz torpaqlarını müdafiə etmə deyil, həm də Türk dünyasının müstəqilliyini qoruma mübarizəsidir. Bu səbəbdən Qərbin ikili standartlarına qarşı Azərbaycanın haqlı mübarizəsini müdafiə etmək yalnız regional sülh deyil, həm də Türk dünyasının gələcəyi üçün vacibdir. Makron kimilərinin haqsız ittihamlarına baxmayaraq, Azərbaycan düzgün yoldadır və haqlı mübarizəsini qətiyyətlə davam etdirir".



# Kanada kölə dövlət buxovundan xilas ola bilmir

## Kanadanı müstəqil, daxili və xarici siyasətini özü həyata keçirən dövlət kimi təqdim etmək sadəlövhlük olardı

Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması və dünyada nüfuzunun günü-gündən artması, bəzi bədxah dövlətləri və beynəlxalq təşkilatların üzdəniraq nümayəndələrini ciddi şəkildə təşvişə salır. Çünki onlar dünya siyasətində yeni bir qüvvənin meydana gəlməsini arzu etmirlər, müstəmləkə, işğal siyasətlərinə əngəllər yaradan, xalqların azad və rahat yaşamasına öz dəstəyini göstərən dövlətin mövcudluğunu istəmirlər. Xüsusilə də, Fransanın müstəmləkə siyasətinə qarşı Azərbaycanın sərt münasibət bildirməsi və müstəmləkə altında əzilən xalqların azadlıq mübarizəsinin həyata keçirilməsi üçün "Bakı təşəbbüs qrupu"nun yaradılması daim dünyada sülhə və təhlükəsizliyə təhdidlər törədən dövlətləri narahat edir. On görə də, bir araya gələrək Azərbaycanın dünyadakı gücünə və qüdrətinə əngəllər yaratmağa, nüfuzuna kölgə salmağa çalışırlar. Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən dövlətlər hansılardır? Bir mənalı şəkil də cavab olaraq demək olar ki, Fransa, ABŞ, Hindistan, Kanada, Niderland və digər dövlətlər. Hansı ki, sözügedən dövlətlər həm də 30 il Azərbaycanın torpaqlarını işğal altında saxlamış terrorçu toplumdan ibarət olan ermənilərin yanındadılar. Davamlı şəkildə bu dövlətlər Ermənistanı silah -sursatla təmin edirlər, maliyyə yardımları göstərirlər, mənəvi dəstək nümayiş etdirirlər. Ələbaxım qul xislətli Ermənistandan fərqli olaraq Azərbaycan yalnız öz gücünə arxalanır, müstəqil siyasət aparmaqla azad və demokratik dövlət olduğunu nümayiş etdirir. Ölkə Prezidenti, Fateh Sərkərdə İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycanın öz gücünə arxalanması xarici siyasəti müəyyənləşdirən əsas faktorlardandır: "İstər yaxın ətrafımızdakı ölkələrlə, istərsə də uzaq xarici ölkələrlə praqmatizmə, realizmə, mənafelərin üst-üstə düşməsinə, qarşılıqlı hörmətə, bir-birinin daxili işlərinə qarışmamağa əsaslanan münasibətlər qurmuşuq".

### Kanada hələ də orta əsrlərin idarəetmə təfəkküründən xilas ola bilmir

Azərbaycanın Ermənistan üzərində parlaq hərbi, siyasi, diplomatik qələbə qazanması işğal dövründə işğalçıya himayədarlıq etmiş dövlətlərin narahatlığına və təşvişinə səbəb olub. Çünki xristian Ermənistan müsəlman Azərbaycan dövləti tərəfindən əzilərək küncə sıxışdırılıb. Hətta elə bir vəziyyət yaranıb ki, Ermənistan öz dövlətçiliyini itirə bilər. Ona görə də, Ermənistana hər cür dəstək göstərməklə ən azı "Xristian klubu"nun üzvü olan Ermənistanın müstəqilliyini məhv olmaqdan xilas etməyə çalışırlar. Azərbaycana qarşı boşboğazlıq, mənasız hay-küylər məhz Ermənistanı gözlənilər faciədən və fəlakətdən qorunmasına hesablanıb. Fransadan sonra Kanadanın Azərbaycan qarşı qarayxama kampaniyası aparması, ölkəmizi "etnik təmizləmə" də günahlandırması və digər absurd iddialarla çıxış etmələri açıq qərəz və böhtanlardan irəli gəlir. Əsasən də Kanadanın xarici işlər naziri Melani Joli Azərbaycana qarşı şər və böhtanları ilə sanki Yeravanda doğulub, atası və anası da hansısa "yan" dır. Bu üzü üzlər görmüş madumazel hara getsə və hansı tədbir də çıxış etsə ermənilələri məzlum, əzilən, bədbəxt toplum kimi təqdim edib, onların xilası üçün bəzi ölkələrə çağırışlar edir. Bu o məxluqdur ki, hələ ötən ilin oktyabrın 25-də tarixi Azərbaycan şəhəri olan İrəvana səfəri zamanı timsah göz yaşları axıdıb, ermənilərin bədbəxt gündə yaşamalarına acıdığını söyləmişdir. Azərbaycanı hədəf seçən Melani Joli ölkəmizə qarşı əsasız ittihamlar irəli sürmüş, hətta Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinin vacibliyini qeyd etmişdir. Melani Jolinin Qarabağdan könüllü gedən ermənilərin öz evlərinə qayıtması üçün onlara Azərbaycan hökumətinin imkanlar yaratmasının vacibliyini söyləmişdir. Kanada xarici işlər naziri bir qədər də dərinə gedərək könüllü Qarabağdan gedən erməniləri Azərbaycan tərəfindən həyata keçirilən "etnik təmizləmə" kimi təqdim etməyə cəhd göstərmişdir. Ötən il İrəvana səfəri zamanı səsləndirdiyi qərəzli ifadələrini Melani Joli hər fürsət yarandıqca dilə gətirir. Bu isə onu deməyə əsas verir ki, bu şəxs dövlət adamı postunda əyləşsə də, əslində, erməni lobbisinin üzvüdür. Onun ermənilərin himayədarı kimi çıxış etməsinin arxasında Fransanın da təsirinin dayandığı şübhəsizdir. Çünki Melani Jolinin babası fransızdır. Babası 1967 - ci ilə qədər Fransada yaşamış və ölkənin xüsusi xidmət orqanlarında çalışmışdır. Sonradan ailə Kanadaya köçmüş və Ottava şəhərində məskunlaşmışlar. Melani Jolina danışarkən daha çox fransız ləhcəsində ifadələrə daha çox yer verməsi onun Fransaya bağlı bir məmur olduğunu göstərir. Məhz Fransanın Melani Jolina qarşısında qoyduğu tələb nəticəsində Kanada 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Kanada şirkətinin Türkiyəyə silah embarqosunun tətbiqinə nail olunmuşdur. Kanada erməni mövqelərinə qarşı istifadə edilən türk pilotsuz uçuş aparatlarında Kanada texnologiyasından istifadə edildiyini iddia edərək, 2020-ci ilin oktyabrında Türkiyəyə müdafiə sənayesi ixracına embarqo qoydu, 2021-ci ilin aprelində isə "Telemus Sistemleri Inc." şirkətinin ixrac icazələrini ləğv edib. Həmin şirkət 2021-ci ilin oktyabrında müflis oldu. Hərbi pilotsuz uçuş aparatlarında istifadə üçün geniş çeşiddə elektron məmulatlar istehsal edən "Telemus Sistemleri Inc." şirkəti embarqonun mənfi maliyyə təsirləri səbəbindən Kanada hökuməti ilə Türkiyəyə ixrac icazəsi üçün bir neçə dəfə danışıqlar aparmağa cəhd etsə də, heç bir nəticə əldə edə bilməyib. Qeyd edək ki, şirkət hasilatı dayandırmazdan əvvəl 1,1 milyon ABŞ dolları xalis zərər görüb. Hətta şirkətin yaxın vaxtlarda fəaliyyətini dayandıracağı barədə məlumatlarda yayılır. Bütün bunlar Melani Jolinanı narahat etmir. Çünki əsas məslə ondan ibarətdir ki, Fransa hakimiyyətinin əmrini icra edib və erməni lobbisi razı salan addım atıb. Fransanın idarə-etmə üsul idarəsinin ölkə ərazisində tətbiq olunması üçün Kanadanın xarici işlər naziri Melani Joli bütün imkanlarından istifadə edir .2019 və 2024-cü illər də Kanada hökuməti Nunavute əyalətində fransız dilinin dətəklənməsinə 42 dəfə çox vəsait ayırmışdır. Halbuki digər xalqların dilləri itmək üzrədir. Bunla bağlı YUNESKO-da həyacan təbili çalıb. YUNESCO-nun məlumatlarına görə, Kanadada yerli xalqların danışdığı 90 dilinin ? yox olmaq təhlükəsi ilə üz-üzədir. C.D. Howe Institute araşdımaları müəyyən edə bilmişdir ki, Kanada rezervasiyalarında yaşayan 10 aborigendən yalnız 4-ü orta məktəbi bitirir. Halbuki Kanadanın yerli xalqları olmayanlar arasında bu göstərici 10 nəfərdən 9-dur. Hökumətin vandal siyasətinə etiraz etmək həbsxanalar atılıb cürümək və ya gecənin birində evi tapılmaq deməkdir. Hətta hökumətin qəzəbinə məruz qalan yerli xalqlar yaşadıqları yerdən başqa məkana köçürülmək riski ilə də üzləşə bilərlər. Belə bir qəzəbə yerli xalqların əsas aparıcı nümayəndələrindən olan inuitlər üzləşiblər. İnuitlər 4 dəfə öz tarixi yurd yerlərindən köçürülüblər. Kanada hakimiyyəti inuitləri öz tarixi torpaqlarından 100 km aralığa köçürməyə qərar vermişdir. Köçürməyə səbəb kimi onların federal işçilərlə ticarətdən olduqca çox asılı olmaları bildirilmişdir. Faktiki onlar izolyasiyada olan adaya köçürülmüş və onlara yaşamaq üçün yemək, infrastruktur və ya tikinti üçün avadanlıq verilməmişdir. Köçürülmə zamanı bir çox insanlar ölmüşdür. Bundan sonra daha 3 köçürülmə olmuşdur. Xatırlatmaq olar ki, Kanada 1952-ci ildə Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyasını ratifikasiya etmişdir

### Kanada özünü dünyada vəhşi, barbar qurum kimi tanıdıb

Kanada Fransa kimi dünyada sülhə və təhlükəsizliyə təhdid yaradır. Həm də bu ölkə dünyada vəhşi, barbar qurum olaraq təqdim edilir. Çünki Kanada Fransaya, sonradan Böyük Britaniyaya, son vaxtlar isə ABŞ-a arxalanıb, qonşu xalqlara qarşı soyqımı cınayətləri həyata keçirib.. Kanadada uşaqları üçün açılan çoxsaylı internatlarda kütləvi şəkildə uşaqların öldürülməsi faktları məlumdur. 2021-ci ildə Kanadanın Saskaçevan vilayətindən bu tip internat-məktəb həyətinin yanında 751 nəfərə aid məzarlıqlar tapılmışdır. "The Cowessess First Nation" bəyan edir ki, bu Kanada ərazisində tapılmış ən böyük məzarlıqdır. Bir müddət sonra Britaniya Kolumbiyasında qazıntılar zamanı bu tip məktəb-internata yaxın 215 yeniyetmənin məzarlığı tapılmışdır. 3-yaşdan yuxarı olan uşaqlar 1900-1971-ci ildə burada dəfn edilmişdir. Kanadanın Baş nazir Trudo bildirmişdir ki, bütün bunlara görə Kanada məsuliyyət daşıyır. 1831-1996-ci illərdə kilsə tərəfindən idarə olunan yerli xalqlar üçün 130 məktəb-internat fəaliyyət göstərirdi. Onlar yerli xalqların assimilyasiyası siyasətini reallaşdırırdı. Bütün fəaliyyət dövründə həmin məktəblərdən 150 minə yaxın tələbə keçmişdir. Ən azı 3200 uşaq soyuq hava, pis qidalanma və xəstəliklər səbəbindən vəfat etmişdir. Çoxu fiziki, seksual və emosional zorakılığa məruz qalmışdır. 2012-ci ildə yerli xalqların 325 nümayəndəsi Kanada hökumətinə qarşı maddi təzminat tələbi ilə iddia qaldırmışdır. 2015-ci ildə Həqiqətin Tapılması və Barışıq Komissiyası açıqladığı hesabatda həmin internat-məktəblər sistemini mədəni soyqırım adlandırmışdır. Kanada hökuməti yerli xalqlara 2.1 mlrd dollar təzminat ödəməyə razı olmuşdur. 2022-ci ilin iyulunda Roma Papası kilsənin Kanadada yerli xalqları zorla assimilyasiya etməsini soyqırım adlandırmışdır. Ümumiyyətlə faktlar təsdiq edir ki, Kandanın yerli xalqları müasir dövrün yeniliklərini qəbul edə bilmirlər. Yəni onlar dünyada texanaloji dəyişklərlə uyğunlaşmaqda çətinliklər çəkirlər. Bu da onunla bağlıdır ki, Kanda mövcudluğu dönəmindən bu günə qədər müxtəlif dövlətlərin müstəmləkəsi altında olub. 1605-ci ildə fransızlar, 1623-cü ildə isə ingilislər Kanada ərazisində ilk yaşayış məntəqələrinin əsasını qoyublar. 1756-1763 Fransa və Böyük Britaniya arasında yeddi illik müharibədə britaniyalıların qələbəsi nəticəsində Kanada Britaniyanın müstəmləkəsinə çevrilmiş və yalnız 1931-ci ildə yarım müstəqillik əldə etmişdir. Kanadanın təsərrüfatı əvvəlcə Böyük Britaniyanın, İkinci dünya müharibəsindən sonra isə ABŞ-nın təsiri altında əmələ gəlmişdir. Bu gün Kanada müstəqil dövlət ola bilmir. Çünki yaranışı başqa dövlətlərin istəyi ilə baş verib. Hazırda ABŞ-ın tabeçilyində və Fransanın təsiri altında olsa da Böyük Britaniyanın kraliçasının nəzarətindədir. Dövlət büdcəsinin və baş nazirin təsdiqi, xarici ölkələrə ordunun gönərilməsi və digər məsələlər məhz Böyük Britaniya Kraliçasının təsdiqi və ya razılığı ilə həyata keçirilir. Ona görə də, Kanadanı müstəqil, daxili və xarici siyasətini özü həyata keçirən dövlət kimi təqdim etmək sadəlövhlük olardı. Müstəqil olmayan "dövlət"dən təəccüb və ironiya ilə qarşılanan fikirlərin eşidilməsi və qərarların verilməsi gözləniləndir.

**İLHAM ƏLİYEV**

# Ermənistanı fəlakətə sürükləyən AMERİKA-FRANSA QAYDALARI

***Heç zaman müstəqil siyasət yürüdə bilməyən, suveren ölkə kimi mövcud ola bilməyən Ermənistan yenə də kölgəsinə sığındığı ölkələrin qaydaları ilə oyunlar oynamaqdadır. Əlәlxüsus da ABŞ və Fransa kimi dövlətlərin qaydalarına tabe olan Ermənistan, belə görünür ki, fəlakətə sürükləndiyinin qətiyyən fərqində deyil. Vaşinqtonun və Parisin qaydalarına tabe olan rəsmi İrəvan hər zaman olduğu kimi, hələ də müstəqil siyasət yürüdə bilmir və buna görə də Ermənistanı məhz Qərbin qaydaları ilə oynayan bir çox ölkələrin daha acınacaqlı taleyi, daha dəhşətli sonluq gözləyir.***



## Amerikalıların öz qaydaları ilə erməniləri "oynatmaq" ənənəsi hələ də davam edir

Hələ də Amerikada məhz Qarabağla bağlı, əlәlxüsus da ermənilərlə əlaqədar dinləmələr keçirilirsə, deməli, ABŞ qətiyyən Cənubi Qafqazdan əl çəkmək niyyətində deyil. Belə görünür ki, həqiqətən də Amerika regiondan əl çəkmək istəmir və amerikalıların öz qaydaları ilə erməniləri "oynatmaq" ənənəsi hələ də davam edir. ABŞ Konqresinin İnsan Haqları Komissiyasında "Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan haqları" mövzusundakı dinləmələrdə keçmiş separatçı rejimin nümayəndələrinin, xüsusən də Qeqam Stepanyanın təqdimatının olması özü də bir çox məqamlardan xəbər verir və deyilənin, gəlinən qənaətin doğruluğunu təsdiq edir.

Vaşinqton, Paris və bir sıra digər paytaxtlar elə hesab edirlər ki, "Qarabağ məsələsində" Ermənistanı dəstəkləməklə guya nəyə isə nail ola biləcəklər. Onların fikrincə işğalçı ölkəni dəstəkləməklə, guya nəyinsə əldə olunması "məsələsi" öz həllini tapa bilər. Onlar həm də elə zənn edirlər ki, ilk növbədə bununla Bakıya təzyiq göstərə biləcəklər və bununla da Cənubi Qafqaz bölgəsində mövcudluğunu gücləndirəcəklər. Məhz belə zənn etdikləri üçün, xüsusən də müvafiq qənaətdə olduları üçün Amerika-Fransa qaydaları ilə Ermənistanın oynamasında maraqlıdırlar. Rəsmi İrəvan da heç fərqinə varmadan, məhz onların maraqları üçün elə onların da qaydaları ilə oynayır və öz-özünü fəlakətə, uçuruma doğru aparır.

## Tələskənliklə guya sülh müqaviləsinə getmək istəyinin, həvəsinin olması ortada tamamilə başqa məqamların olduğunu göstərir

Hazırki Ermənistan hakimiyyətinin son zamanlar müxtəlif platformalarda və müxtəlif səviyyələrdə sülhə doğru atılan addımlara əminlik ifadə etməsi də təsadüfi deyil. İşğalçı ölkə hakimiyyəti, şəxsən Nikol Paşinyan və Ararat Mirzoyan Azərbaycanın sülh müqaviləsinin artıq razılaşdırılmış mətnini imzalamağa dəvət edildiyini bildirərək, hazır olduqlarını da ifadə ediblər. "Mən sülh və münasibətlərin bərqərar olması haqqında razılaşdırılmış mətni mümkün qədər tez imzalamağa hazır olduğumuzu təsdiq etmək istəyirəm. Biz təklif edirik ki, artıq razılaşdırılmış sənədi götürək, imzalayaq, fundamental sənədimiz olsun və sonra qalan məsələlərin müzakirəsinə davam edək", deyə Ermənistanın baş naziri Nikol Paşinyan bildirib. İşğalçı ölkənin XİN rəhbəri Mirzoyan da erməni baş nazirlə eyni fikirdə olduğunu diqqətə çatdırıb. "Ermənistan Azərbaycanla tezliklə sülh müqaviləsi imzalamağa hazırdır. Biz razılaşdırılmış mətni tez bir zamanda imzalamağa hazırıq", deyən xarici işlər naziri Ararat Mirzoyan öz fikrini məhz Fransanın Avropa və Xarici İşlər naziri Stefan Sejournet ilə birgə mətbuat konfransında bildirib.

Ermənistanın baş nazirinin, eləcə də XİN rəhbərinin fikirlərini olduğu kimi, vasitəsiz nitq şəklində qeyd etməkdə məqsəd ondan ibarətdir ki, həmin fikirlərin əvvəla, eynilik təşkil etdiyini diqqətə çatdıraq və bunların əvvəlcədən planlaşdırılmış şəkildə olduğunu xatırladaq. Bu fikirlərə rast gəldikdə dərhal adama elə gəlir ki, ya hər iki erməni lap öncədən planlı şəkildə hazırlıq görüb, ya da müəyyən edilmiş qaydalarla yenə də manipulyasiyalar edir, oyunlar oynamaqda da davam edilər. Belə tələskənliklə sülh müqaviləsinə getmək istəyinin, həvəsinin erməni baş nazirdə, yaxud XİN rəhbərində olması sözsüz ki, ortada tamamilə başqa məqamların olduğunu isbatlayır. Görəsən, nədir, nədən ibarətdir həmin məqamlar? Hər halda, hansısa qaydalar, xüsusən də Amerika-Fransa qaydaları ilə yenə də oyunlar oynanılır, çünki nə erməni baş nazirinin, nə də Ermənistanın XİN rəhbərinin sülh gündəmi ilə bağlı ortada konkret istəyinin olmaması göz önündədir. Əks halda bu qədər müddətdə konkret şəkildə ağıllı təkliflərlə çıxış edərdilər.

## Qaydaları ABŞ və Fransa müəyyən edir və səhnənin aktyorları da haylar özləri olurlar

Diqqətə çatdıraq ki, Nikol Paşinyan çox uzaq keçmişdə deyil, bu ilin may ayında jurnalistlərlə görüşündə demişdi ki, müqavilənin imzalanması üçün oradakı bütün prinsiplər razılaşdırılmalıdır. Belə çıxır ki, erməni baş nazirinin bundan əvvəlki fikrincə razılaşdırılmayan fikirlər də var imiş və hələ razılaşdırılmamış fikirlər olduğu halda, "hazır olmaq" barədə heç bir söz həqiqəti əks etdirmir. Belə məlum olur ki, deməli, Vovayeviç bu vaxta qədər tamam başqa fikirdə olub. İndi həmin başqa fikrə tamamilə zidd olan bəyanat səsləndirməsi əlbəttə ki, çox ciddi şübhələr doğurmaya bilməz.

Görünür, Ermənistan hakimiyyəti məhz Qərbin dəstəyi ilə öz planının aktiv mərhələsinə keçmək niyyətində olub. Çox güman ki, Qarabağ ermənilərinin qaytarılması üçün ciddi cəhd edirlər və burada da Qərbin, daha dəqiq desək, ABŞ və Fransanın dəstəyinə güvənərək, nə isə əldə etmək arzusuna düşüblər. Heç şübhəsiz ki, bu arzu da səbəbsiz yaranmayıb və sığındıqları, arxalandıqları Qərbin rolunu görməmək mümkün deyil. Axı bu həmin Qərbdir, həmin Amerika, həmin Fransadır ki, ermənilərə maddi və hərbi yardımlar edir, revanşist əhval-ruhiyyəni qızışdırmaq üçün əlindən gələni əsirgəmir. Bir sözlə, qaydaları ABŞ və Fransa müəyyən edir və səhnənin aktyorları da haylar özləri olurlar. Məsələ burasındadır ki, haylar, xüsusən də Ermənistan hakimiyyəti, rəsmi İrəvan hələ də bu qaydaların onları fəlakətə sürükləyəcəyini dərk edə bilmir.

## Ermənistan Amerika-Fransa qaydaları ilə oynamağa davam etdiyi təqdirdə Azərbaycan asimmetrik tədbirlər haqda düşünməli olacaq

Maraqlıdır, əgər Ermənistan konstitusiyasında hələ də ölkəmizə qarşı ərazi iddiaları varsa, bu işğalçı ölkə hakimiyyəti sülh danışıqlarına necə hazır ola bilər? Qonşu ölkə konstitusiyasında belə ərazi iddialarının olması fonunda erməni baş nazir heç Azərbaycanın ərazi bütövlüyünü tanıması haqda bəyan etdikləri də şübhə ilə qarşılanmalıdır. Bu nöqteyi-nəzərdən çıxış etdikdə görürük ki, haylar bu dəfə də öyrədiliblər və onlar öz iradələri ilə deyil, Amerika-Fransa qaydaları ilə oyun oynamaq niyyətindədirlər. Bütün platformalarda özlərini sülh göyərçinləri kimi göstərməkdən başqa ortada bir niyyət yoxdur. Məqsəd ancaq görüntü yaratmaq, beynəlxalq ictimaiyyəti aldatmaqdan ibarətdir ki, bu da elə qeyd olunan qaydalarla oynanılan oyunların qayəsini təşkil edir. Rəsmi İrəvan göstərmək istəyir ki, guya Ermənistan sülhə hazırdır, amma guya məsələni uzadan rəsmi Bakıdır. Bir sözlə, sülh gündəliyi ilə bağlı cavabdehliyi, məsuliyyəti Azərbaycan tərəfinin üzərinə atmaq üçün oyunlara, özü də Qərbin, daha dəqiq desək, Amerikanın və Fransanın qaydaları ilə qurulan oyunlara baş vuran Ermənistan tərəfi yenə də hiyləgərlik edir. Amma Ermənistan hakimiyyəti hələ də başa düşə bilmir ki, bu qaydalar onları uçuruma doğru aparır. Çünki revanşizm ideyalarını körükləmək niyyəti ilə tərtib edilən qaydalar hayları əmin-amanlığa, sülhə apara bilməz. Hər halda bu dəfə də onların son dərəcə təhlükəli oyunlar oynaması, özü də Amerika-Fransa qaydaları ilə təhlükəli oyunlar oynaması haqda xəbərdalıq edilməlidir. Xəbərdalıq edilməlidir ki, sonra daş atıb baş tutmasınlar. Xəbərdarlıq edilməlidir ki, bu oyunlar onların həm özləri, həm də ölkələri üçün ağır nəticələrə gətirib çıxara bilər. Çünki, Ermənistan Amerika-Fransa qaydaları ilə oynamağa davam etdiyi təqdirdə Azərbaycan da öz növbəsində asimmetrik tədbirlər haqda düşünməli olacaq. Bu da Ermənistan kimi bir işğalçı ölkəyə, bütövlükdə haylara çox ağır başa gələr.

***İnam Hacıyev***

BAXIŞ BUCAĞI

# Gürcüstanda seçkilərə kim müdaxilə edir?

## "Responsible Statecraft": Vaşinqtonun Tbilisinin xarici agentlər haqqında qanununa sərt yanaşması ikiüzlülükdən xəbər verir



***Rusiyanın Qara dəniz sahilindəki Gürcüstan dövlətinə qarşı apardığı qısamüddətli müharibə 16 il əvvələ təsadüf edir. Sentyabrın əvvəlində prezident Co Bayden bu müharibənin ildönümünü qeyd edərək deyib ki, Birləşmiş Ştatlar beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməkdə sabitdir. Bununla belə, Baydenin fikrincə, Amerikanın istəklərinə müqavimət suverenlik anlayışının bir hissəsi deyil. ”Biz gürcü xalqını və onun Avro-Atlantik istəklərini dəstəkləməyə sadiq qalırıq” deyib.***

Bayden Gürcüstan hökumətinin ”antidemokratik addımlarını, Kreml tipli ”xarici agent” qanunu və məmurların Aİ və NATO üzvlüyünün normalarına zidd olan yalan bəyanatlarını kəskin tənqid edib. Keçən həftə ABŞ iki gürcü məmuruna və 60-dan çox şəxsə qarşı ”insan hüquqlarının pozulması” və ”antidemokratik hərəkətlər”ə görə bir sıra sanksiyalar elan etdikdən sonra vəziyyət daha da pisləşib.

Dövlət Departamentinin sözçüsü Metyu Miller bazar ertəsi deyib ki, Birləşmiş Ştatlar Gürcüstan hökumətinin Avropa İttifaqı və NATO-ya üzvlük normalarına uyğun gəlməyən davam edən antidemokratik hərəkətlərindən dərin narahatdır. ”Xarici təsir qanunu adlanan qanuna əlavə olaraq, biz Gürcüstan hökumətinin bu qanuna etiraz edən öz vətəndaşlarına qarşı dəfələrlə zorakılıq tətbiq etdiyini görmüşük”, o əlavə edib.

Gürcüstanın siyasəti 2020-ci ilin oktyabrında keçirilən parlament seçkilərindən sonra çox dəyişkən olub, müxalifət onun nəticələrini qəbul etməkdən imtina edib, baxmayaraq ki, müşahidəçilər onları ”ümumiyyətlə azad və rəqabətli” hesab ediblər. Nümayişçilər hər dəfə demokratiya bayrağını qaldırsalar da, ”Gürcü Arzusu” partiyası 2012-ci ildən başlayaraq ardıcıl üç dəfə seçkilərdə qalib gəlib.

Üstəlik, xarici agentlərin qanun layihəsinin özü nəinki ”anti-demokratik” deyil, həm də Bayden administrasiyasının inandığı kimi ”Rusiyadan ilhamlanmayıb”. Yeni qanun təşkilatlardan xarici maliyyələşdirməni açıqlamağı tələb edir - ancaq bu, onların büdcəsinin beşdə birini və ya daha çoxunu təşkil edərsə. Qanunun özündə qeyd olunur ki, o, yalnız ”təsərrüfat subyektinin xarici dövlətin maraqlarını güdən qurum kimi qeydiyyata alınmasını və şəffaflıqla bağlı digər məsələləri tənzimləyir” və ”xarici dövlətin maraqlarını güdən qurum kimi qeydiyyatdan keçmiş qurumun fəaliyyətini məhdudlaşdıra bilməz”.

Bununla belə, Dövlət Departamenti israr edir ki, qanun layihəsi ”sadə gürcülərin xeyrinə çalışan vətəndaş cəmiyyəti təşkilatları üçün təhlükə yaradır”. Avropa Şurasının qondarma Venesiya Komissiyası belə bir nəticəyə gəlib: ”Qanunla müəyyən edilmiş qaydada xarici dövlətin maraqlarını güdən qurum kimi tanınma ciddi nəticələrə səbəb olur, çünki bu, həm maliyyə sabitliyinə, həm də təşkilatların nüfuzuna xələl gətirir. Davamlı manəələr və dövlətin etiketləməsi narahatedici effekt yaradır”.



Təəssüf ki, müttəfiqlərin ittihamları o qədər də inandırıcı səslənmir. New York Times-ın əməkdaşı-Serj Şmemann qeyd edib ki, amerikalılar və avropalılar qanun layihəsini ləğv etmək üçün Gürcüstana təzyiqləri artırırlar, lakin onlar yaxşı olar ki, öz xarici agent qanunlarına nəzər salsınlar və onun heç vaxt siyasi silaha çevrilməməsi üçün addımlar atsınlar.

Lakin o qatar artıq ən azı ABŞ-da yola düşüb. Xarici Agentlərin Qeydiyyatı Aktı ”xarici rəhbərlərin” (xarici hökumətlər, siyasi partiyalar, təşkilatlar və şəxsləri əhatə edən termin) etibarnamələrinə şamil edilir. Siyasi və ya ictimaiyyətlə əlaqələr kampaniyalarında iştirak etmək, vəsait toplamaq və ya xərcləmək və ABŞ hökumətində ”xarici rəhbərləri” təmsil etmək - bütün bunlar şəxsi xarici agent edir və müvafiq qeydiyyat, açıqlama və mühasibat uçotu tələb edir.

Covington & Burling hüquq firması xəbərdarlıq edib ki, qanun o qədər geniş yazılıb ki, hərfi mənada oxunsa, hətta hüquq firmalarının gündəlik iş əməliyyatları üçün də qeydiyyat tələb oluna bilər. Üstəlik, qanunun minimum həddi yoxdur və təhrikedici hadisə sayılan ən kiçik hərəkətə belə qarşı tətbiq oluna bilər. Gürcüstana gəlincə, əminliklə güman etmək olar ki, Tbilisi ABŞ və Avropanın rejim dəyişikliyinə nail olmaq cəhdlərinə qarşı özünü müdafiə edir. Təbii ki, Vaşinqton bunu etiraf etməyəcək. Dövlət Departamentinin sözçüsü Metyu Miller Baydenin fikirlərini təkrarlayaraq qeyd edib ki, Gürcüstan parlamentinə təqdim olunan qanun layihəsinin ölkəni Avropa yolundan azdıracağından və Gürcüstan vətəndaşlarının xeyrinə çalışan vətəndaş cəmiyyəti təşkilatlarına zərər verəcəyindən çox narahatıq. Biz Gürcüstan hökumətini Aİ-də öz istəklərini müdafiə etməkdə daha qətiyyətli olmağa çağırırıq.

Birlik hökumətləri müəyyən siyasi məqsədlər üçün qrupları maliyyələşdirir. Bu, özlüyündə xəbər deyil: Balkanlarda ABŞ-ın dəstəyi ilə ”ictimai” təşkilatlar nə qədər demokratik olsalar da, ümumən liberalları və avrokratları ənənəvi və millətçilərdən üstün tuturlar. Gürcüstan qanunvericiliyini çox qeyri-müəyyən və zəif işlənmiş adlandırmaq olarmı? Ola bilsin, amma buna qarşı arqumentlər özünə xidmət edən kimi görünəcək. Bir avropalı analitikin qeyd etdiyi kimi: ”Hökumət Gürcüstan vətəndaş cəmiyyətinin xaricdən nə dərəcədə asılı olmasından həqiqətən narahat olsa, o, daha çox yerli maliyyə təmin edə bilər”.

### Öz tənqidçilərinə sponsorluq etməmək həqiqətən Tbilisinin günahıdırmı?



Nə olursa olsun, qeyri-kamil qanunvericilik özlüyündə ABŞ və Aİ-nin etdiyi kimi yardım və vizaların dayandırılmasına, eləcə də Aİ-yə üzvlüklə bağlı müzakirələrin dayandırılmasına çətin ki haqq qazandırır. Üstəlik, oxşar tənqidlər Vaşinqton, Brüssel və Aİ-nin bütün 27 üzv dövlətinin bir sıra qanunlarına da edilə bilər. ABŞ və Rusiyada olduğu kimi qanundan sui-istifadə edilə bilərmi? Əlbəttə.

Bəli, ”Gürcü arzusu” hökuməti etirazları sərt şəkildə yatırdığına görə tənqidə layiqdir. Ötən ay Human Rights Watch xəbərdarlıq etmişdi: ”Gürcüstan hakimiyyəti son aylarda vətəndaş və siyasi fəallara qarşı amansız hücumlarla bağlı effektiv araşdırmanı hələ nümayiş etdirməyib... Bu hücumların cəzasız qalması siyasi zorakılığın və 2024-cü ilin oktyabrında ölkədə keçiriləcək parlament seçkiləri ərəfəsində qeyri-sabitliyin yeni mərhələsinə səbəb ola bilər”.

Üstəlik, hökumət ana müxalifət partiyası olan Saakaşvilinin Vahid Milli Hərəkatını, eləcə də digər opponentləri qadağan etməklə hədələyir. Bu hərəkətlərə, eləcə də digər qanunların pozulmasına görə Tbilisi məsuliyyətə cəlb edilməlidir. Bununla belə, Qərb dövlətləri digər ölkələrin daxili siyasətini diktə etmək cəhdlərini dayandırmalıdırlar. Baydenin Gürcüstanın suverenliyi ilə bağlı dedikləri səmimi deyil. Vaşinqton digər hökumətlərin müstəqilliyinə yalnız onun istəyi ilə hərəkət etdikdə hörmət edir.

Üstəlik, heç bir ölkə başqalarının seçkilərinə ABŞ-dan tez-tez müdaxilə etmir. Carnegie Mellon Universitetinin araşdırmasına görə, Amerika 1945-2000-ci illər arasında başqa ölkələrin seçkilərinə 81 dəfə müdaxilə edib. Və Kiyevi dəstəkləmədiyi və ya anti-Moskva mövqe tutmaqdan imtina etdiyi üçün ”Gürcü Arzusu” hökumətinə qarşı bütün hücumlara baxmayaraq, ölkənin suverenliyini uğurla müdafiə etdi. Quincy İnstitutundan Anatole Lieven qeyd edib ki, gürcü siyasəti hər şeydə Moskvanın ardınca getməyə çalışmaqdansa, əslində MKİ direktoru Uilyam Börnsin ”hərəkət edən orta” adlandırdığı şeyi əks etdirir: o, nə Rusiyaya, nə də Qərbə tabe deyil və Gürcüstanın milli maraqlarına uyğun olaraq dövlət tərəfindən diktə olunur”.

Müxalifət hökumətin Rusiyaya güzəştə gedə biləcəyindən şikayətlənir. Lakin Tiflisin siyasəti Kiyevdən qat-qat effektiv olub. Gürcüstan nəinki azadlığını qorudu, həm də qonşusu ilə işgüzar münasibətlərdən bəhrələnirdi. Gerçəkliyə müəyyən uyğunlaşma təkcə sağ qalmaq üçün deyil, həm də müstəqillik, sülh və firavanlıq üçün ödəniləcək çox təvazökar bir qiymət kimi görünür.

Müttəfiqlərin Moskvanın cilovlanmasına kömək etmək tələblərinə boyun əyməklə Gürcüstan, şübhəsiz ki, 2008-ci il müharibəsi zamanı, ümidsizcəsinə Amerika dəstəyini gözləyən zaman etdiyi kimi, xərc çəkəcək. Müttəfiq hökumətlərin davam edən münaqişəyə son qoya biləcək barışıq və kompromisdən qəti şəkildə imtina etmələrinə baxmayaraq, birbaşa münaqişədə iştirakdan imtina etdiyi üçün indi Ukraynada başqa hadisələr cərəyan edir.

Nəhayət, gürcü hökumətinin qeyri-münasib davranışı ilə məşğul olmaq gürcü xalqının özündən asılı olacaq. Oktyabr seçkiləri ərəfəsində hətta Tbilisinin ən sərt tənqidçilərindən biri müxalifəti öz fikirlərini xarici hökumətlərə deyil, seçicilərə çatdırmağa çağırıb.

***V.VƏLİYEV***

# Vətənə daş, torpağa qardaş, ölkəyə vətəndaş olduq!

***Daş, tarixdir, əsrlərin o başından bu başınadək ötən tarix. Biz olmasaydıq, o tarixi kim yaşadardı? Biz Vətənə daş olduq. Hər dağında, hər qayasında, çayında, hər elində... Daş olduqca da daşlaşdıq. Tariximizi yazdıq. Hünər, qəhrəmanlıq səhifəsini öz əllərimizlə yazıb bu Vətənin daşına çevrildik. Qoparmaq istədilər, qopmadıq. Daşımaq istədilər, yerimizdən qaldıra bilmədilər. Əlləri külünglə gəldilər üstümüzə, bir qətrəmizi qopara bilmədilər. Çünki biz bu Vətənin daşı olduq. Yerindən tərpənməyən, düşdüyü yerdə ağır olan daşı...***

Qardaş arxadır, dayaqdır. Qardaş düşmən çəpəridir. Sinəsini qabağa verib arxadakıları qoruyan, namusunu, qeyrətini çəkən, elinin qız-gəlinini göz bəbəyi kimi qoruyan, ağsaqqal-ağbirçəyinə saygı ilə yanaşan oğuldur. Düşmənin əyri baxan gözünü oyan, el qoruqçusu, torpaq sevdalısı, məmləkət qeyrətlisidir. Həddi-buluğa çatan gündən kişiliyini hiss edən, çiyinlərindəki yükün nə olduğunu anlayan, bütün bunlara görə də həyat tərzini quran igiddir, ərdir.

Vətənin sərhədlərini oğul üçün binə edib Yaradan. Edib ki, parça-parça ayırıb məmləkətlərə, Vətənlərə, ölkələrə böldüyü yer üzü dünyaya göndərdiyi ərlərlə qorunsun. "Məhz oğullarla qorunmalıdır Vətən" deyib Yaradanımız. Bu missiyanı, vəzifəni yaradılışdan onlara bəxş edib.








Biz hamımız-kişili-qadınlı torpağın qardaşıyıq, onu mühafizə edənlərik. Qadınlara yaradan o vəzifəni verib ki, dünyaya oğul gətirsinlər. O oğullar isə torpağa canlarını qurban vermək üçün gözlərini dünyaya açsınlar. Elə buna görə də deyilməyibmi ki, oğul torpaq payıdır. Yəni istənilən bir məqamda yaşından asılı olmayaraq o torpağının çox sevdiyi sevdalısının payına çevrilə bilər...

Biz ölkəmizə vətəndaş olduq. Xalq şairi rəhmətlik Məmməd Araz yazırdı ki, Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Biz ölkəmizin vətəndaşı olmağı əsrlərdir haqq edirik. Çünki öncə onun daşı olmağı bacarmışıq. Tarixin o üzündən bəri əllərimizlə yazdığımız salnamələri vərəqləsək, görərək ki, bu xalq yadelli işğalçılarla, torpağımızda gözü olanlarla, bu səbəbdən də ölkəmizə yürüşlər edənlərlə necə mübarizələr aparıb, bu torpağın hər bir qarışının qorunması, mühafizə olunması üçün canından keçib. Beləliklə də biz Vətənin daşı olmuşuq ki, bu Vətəni, bu torpağı bu günlərə gətirib çıxara bilmişik. Deməli, biz həqiqətən də ölkəmizin vətəndaşı olmağı haqq etmişik.

## Çox uzağa getməyək...

Bəli, daş tariximizi kəlmə-kəlmə oxuyub öyrənmişik. Kimlərin bu xalqla hansı münasibətdə olduğunu, kimlərin üzdə, kimlərin arxada dostluğunu da, düşmənliyini də görmüşük.

Çox uzağa getməyək. yaşımızın imkan verdiyi, özümüzü anladığımız dövrlərə bir nəzər salaq. Biz haralardan haralara gəldik.



Bizim başımıza nələr-nələr gəldi. Qonşuluqdan kənar ermənilərdən söhbət açaq. Hansı ki, ötən əsrin əvvəllərindən süfrəmizin başındakı düşmənimizdir bu yersiz-yurdsuzlar. Haradan gəlib bizimlə qonşu oldular, heç bilmədik. Bir də ki qonşu oldular deyəndə, onların torpağı yox idi ki, bizimlə də qonşu olalar. Bizə sığına-sığına, süfrəmizin qırıq-quruğu ilə dolana-dolana içimizdə düşmənə çevrildilər. Sonra torpaqlarımıza göz dikənlərin havadarları hərdən bir qarışımızı qoparıb "onların olsun" dedi və beləliklə də bu vəhşi qəbilə qulağımızın dibindəcə düşmən qonşumuza çevrildi.

Başqasının hesabına torpaq sahibi olanlar elə ki, bir qədər özlərinə gəldilər, başladılar yeni-yeni torpaq iddialarına. Yəni bunları da onlara vəsiyyət edənlər, başa salanlar var idi. Yoxsa əzəldən torpağı, bu torpağa bağlılığı, sevdası olmayan yaradılanda sonradan bu hisslər formalaşa bilməz.

Arxalarında dayananlar, əslində Azərbaycanın varlığını, sərvətini sinirə bilməyənlər erməni adlı varlıqları qızışdırıb ortaya saldı ki, bizim hüzurumuzu qaçırsınlar. Dinc yaşamağımızı, regionda söz sahibi olmağımızı əngəlləsinlər. Çünki bu dövlətin sabahındakı işıq onların gözlərini qamaşdırıb korluq həddinə gətirməkdə idi.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilər qızışdırılıb yenidən ortaya salındılar. Bütün havadarlarının gücü ilə Azərbaycan torpaqlarını işğal etmək, ölkəni yaralamaq, o yaraların illərlə qan süzməsinə çalışdılar. Beləliklə də XIX-XX əsrin ayrı-ayrı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları 80-ci illərin sonundan başlanan erməni işğalçılıq siyasəti ilə başa çatdı. Nəticədə həmin illərdə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün də ermənilərin havadarları ilə əlbirliyi ilə torpaqlarımızn 20 faizdən artığı erməni faşistləri tərəfindən işğal edildi.

## İşğal edildi, yoxsa...

Torpaqlarımız əslində ermənilərə satılmışdı. Səriştəsiz qruplaşmanın vəzifə kürsüsünə, hakimiyyətdə qalmaq arzusuna, yerlərini bərkitmək istəklərinə qurban getmişdi Qarabağ və Şərqi Zəngəzur. Lakin siyasət o qədər ikibaşlı idi ki, AXC-Müsavat cütlüyü torpaqları satmaqla yanaşı, həm də minlərlə oğul və qızımızın, günahsiz körpənin qətlinə fərman vermişdi. Vətən daşı olan torpaq sevdalılarımız əllərində ov silahı, şana, yaba, dırmıq ilə düşmənin qarşısına çıxmışdılar. Düşmən isə havadarları tərəfindən ən müasir silahlarla silahlanmışdı.

Bizim hakimiyyət həvəsliləri isə torpaqları satıb otaqlarında gizlənmiş, Qarabağ üçün kömək uman insanlardan dəqiqəbaşı gələn telefonları açmırdılar. İnsanlar cəbhədə kütləvi şəkildə şəhid olur, qan su yerinə axır, soydaşlarımız öz ata-baba ocaqlarından, əzəli yurdundan silah burnunda çıxarılır, qovulur, hakimiyyətdəkilər isə susmağa üstünlük verirdilər.

Bu səbəblərdən də heç vaxt işğal sözü ilə razılaşmaq istəmirəm. Erməni kim idi ki, Azərbaycan torpaqlarını işğal edə. Minlərlə insanı qətlə yetirə, minlərlə insanın 30 il köçkün həyatı yaşamasına səbəb ola...

Torpaqlarımız satılmışdı. Bu, tarixi faktdır. Azərbaycanlıların heç vaxt unutmayacağı, tariximizin qara bir səhifəsini təşkil edən fakt. Deməli, bəli, heç də hər kəs Vətən daşı olmağı bacarmırmış. Daha doğrusu Vətənin daşı olmaq da gərək Ulu Yaradan tərəfindən insana nəsib edilə. Çox təəssüf ki, onların bu nəsibdən payı olmadı. Tarixin səhifələrində deyil, zibilliyində yer aldılar.



## Beləliklə, 30 il...

90-cı illərin əvvəllərində minlərlə şəhid versək də, insanlar hər qarış torpaq uğrunda canından keçsə də, lakin milli ordumuzun yox dərəcədə olması, hakimiyyətdə olanların isə qəti şəkildə yaxına durmaması nəticəsində torpaqlarımız anası Azərbaycandan ayrı düşməli oldu. Düşmən 30 il əzəli torpaqlarımızda at oynatdı. Sərvətlərini daşıdı, satdı-sovdu, tarixi-mədəniyyət abidələrimizi, məscidlərimizi yox etdi, bir sözlə, daşı daş üstündə qoymadı. Bu torpaqlara faşizmin ən qəddar üsullarını tətbiq etdi. Bununla bir tərəfdən də həqiqəti ortaya qoydu əslində. "Bu torpaqlar bizimdir",- deyən ermənilərin yanlış fikirdə olduğunu elə ilk günlərdən təsdiqlədi. Çünki insan övladı özünün olanlara qətiyyən bu divanı tutmazdı.



Minlərlə məcburi köçkün ozanmankı iqtisadiyyatı çökmüş Azərbaycanın dörd bir tərəfinə yayıldı. Həmin vaxtlar insanların hansı zülmlərlə, çətinliklərlə qarşılaşmasına, hansı şəraitdə yaşamasına çoxlarımız şahidik. O zamana kimi ki, Ulu Öndərimiz yenidən Azərbaycanda hakimiyyətə gəldi, AXC-Müsavat qruplaşması hakimiyyətdən uzaqlaşdırıldı. Bundan sonra iqtisadiyyatımız, sosial həyatımız kimi, məcburi köçkünlərin də həyat tərzi dəyişməyə başladı. Ancaq onlar üçün nə qədər təminatlı şərait yaradılsa da, yurd həsrəti, ocaq arzusu bir saniyə də bu insanları tərk etmədi. Minlərlə soydaşımız elə qəriblikdəcə yurd həsrəti, hicranı ilə dünyasını dəyişdi.

Torpaqlarımızdan 30 il ayrı qaldığımız illərdə 1993-cü ildən başlayaraq Ulu Öndər Heydər Əliyev tərəfindən əzəli yurdlarımızın geri alınması üçün çoxsaylı tədbirlər həyata keçirildi. Milli Ordumuz təkmilləşdirilməyə başlandı. Hələ Ulu Öndər Naxçıvanda olarkən bu addım orada atılmışdı. Çünki Öndərimiz yaxşı bilirdi ki, nə qədər ki, ordumuz yoxdur, torpaqların azadlığından söhbət gedə bilməz. Ölkə iqtisadiyyatı da həmçinin. Çökmüş iqtisadiyyat dirçəlmədən hansı müharibədən söhbət gedə bilərdi. Zəfər qazanmaq, düşməni çökdürmək üçün axı güc lazım idi.



Biz illərlə bir gün torpaqlarımızı qaytarmaq arzusu ilə yaşadıq. Ulu Öndərin başladığı, lakin ömrün vəfa etmədiyi işləri 2003-cü ildən dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev davam etdirdi. Ölkə iqtisadiyyatı ilə ordu quruculuğu paralel şəkildə elə inkişaf etdirildi ki, onların tarazlığı eyni səviyyədə oldu.

2020-ci ilə qədər düz 17 il ölkə rəhbəri dünyanın ən mötəbər kürsülərindən beynəlxalq təşkilatlara üz tutdu. Onlara Azərbaycan həqiqətlərini çatdırdı. Erməni yalanlarını ifşa etdi. Sülh yolu ilə torpaqlarımızın qaytarılması uğrunda mübarizə apardı. Lakin dünya susdu. Ədalətə kar olduğu üçün deyilənləri eşitmədi və anlamadı. Lakin dövlətimizin başçısı bütün bayram və əlamətdar günlərlə bağlı xalqa müraciətlərində həmişə onu da vurğulayırdı ki, torpaqlarımız bir gün azad olunacaq. Sülh yolu ilə olmasa, hərb yolu ilə azad edəcəyik. Bu, tarixi ədalətdir. Bu ədalət bir gün qalib gələcək.

## Belə də oldu

2020-ci ilin sentyabr ayı... Əsl Vətən daşı, torpaq qardaşı, ölkə vətəndaşı olduğumuzu təsdiq etdiyimiz o gün-27 sentyabr. Həmin gün dövlətimizin başçısı televiziya ilə xalqa müraciət edərək İkinci Vətən müharibəsinin başladığını bəyan etdi.

Erməni vəhşiliyinə, tamahına son qoymağın vaxtı çatmışdı. Müharibənin başlaması acı xəbərdir. Bunu kitablardan da oxumuşuq, filmlərdən də öyrənmişik, 90-cı illərdə Birinci Vətən müharibəsində isə canlı şəkildə görmüşük. Lakin dövlətimizin başçısının müharibənin başlanması ilə bağlı bəyanatını sevinclə qarşıladıq. İnanın ki, bu, dünya tarixində ilk belə hadisə idi. Bunun isə səbəbləri vardı: biz Vətənin daşı idik, torpağın qardaşı, sevdalısı idik. Əsl vətəndaş idik. Bax, elə bunlara görə də Vətənin tamlığı, ərazi bütövlüyü uğrunda ölümə getdiyimizi bilə-bilə sevinirdik. Müharibəni ağlamaqla, sızlamaqla deyil, sevinclə, qürurla qarşılayırdıq.

Həmin gündən etibarən bütün Azərbaycan ayağa qalxdı. Hər kəs cəbhəyə yollanmağa can atırdı. Səfərbərlik idarələrinin qarşısı insanla dolu idi. Lakin milli ordumuz öndə idi. Könüllü gedənlərin sayı-hesabı yox idi. Bu səbəbdən də hamı gedə bilmirdi. Onlar Ali Baş Komandanın əmrini gözləyirdi. Bir əmrlə hər kəs bir günün içərisində Qarabağda və Şərqi Zəngəzurda olmağa hazır idi.

Şiddətli müharibə gedirdi. Lakin müharibənin ilk günündən üstünlük Azərbaycan tərəfdə idi. Müharibənin ilk günündən qələbə müjdəsini dövlətimizin başçısından almışdıq. Bu sevinclə daha bir güc tapmışdıq özümüzdə, əmin idik ki, qələbə bir-birinin ardınca bizim olacaq və biz Böyük Zəfəri yaşaya biləcəyik...

## Zəfər sevincini yaşaya bildik

Tarixi Zəfər Vətən daşı olanların əsl vətəndaşlığı sayəsində qazanıldı. Ölkəmizdə yetişdirilən vətənpərvər gənclərə hərbin sevdirilməsi, torpaq sevgisinin aşılanması, əzəli yurdlarımızın uzun illər haqsızlığa qurban getməsinin, minlərlə insanın da bu ədalətsizliyə tuş gəlməsinin bütün detalları ilə çatdırılması onlarda düşmənin gözlərini oymaq, qisas almaq hissini ən yüksək həddə çatdırmışdı. Bu səbəbdən də gənclər çoxdan idi ki, o günləri gözləyirdi. Həmin gün isə 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 10-dək düz 44 gün, 2023-cü ilin 19-20 sentyabrında isə düz bir gün davam etdi. Bu dəfə də minlərlə şəhid verdik, minlərlə qazimiz oldu. Lakin bu dəfə 90-cı illər müharibəsindəki kimi əllərimiz boş qalmadı. İgidlərimiz cəbhədən evlərinə Zəfər sevinci, əzmi, qüruru ilə qayıtdılar.

Biz Zəfər çaldıq. Qarabağı və Şərqi Zəngəzuru erməni tapdağından xilas etdik. 30 illik həsrət sona çatdı. Bütün xalq qələbə sevincini yaşadı, ölkə toy-bayrama büründü.

Bəli, şəhid verdik, ürəyimizdən qara qanlar axdı. Övlad itirmək heç də asan məsələ deyil. Lakin biz analar oğulları Vətən üçün dünyaya gətiririk. Bax, tək təsəllimiz bu oldu.

Ali Baş Komandanımız və rəhbərlik etdiyi Milli Ordumuz bizim namus, ləyaqət məsələmizi həll etdi. İllərlə torpaqlarımızın işğal altında olmasını başımıza qaxanc edənlərin yanında alnımızı açıq, üzümüzü ağ etdilər. Buna görə də şəhidlərimizin ruhu qarşısında baş əyir, Ali Baş Komandanımıza dünya durduqca minnətdarlıq edir, Milli Ordumuzla qürur duyuruq.

Biz hər zaman Vətənimizin bax, belə daşı, ölkəmizin bax, belə vətəndaşı olmuşuq. İgidlik, qəhrəmanlıq, ərlik abidəsi olmuşuq. Bunu 2020-ci ilin 44 və 2023-cü ilin 1 günü bir daha təsdiq etdi.

***Mətanət Məmmədova***

# Muxtariyyət dövründə Azərbaycanın mədəni və elmi həyatının tərəqqisində Naxçıvanın rolu

***Öz keşməkeşli tarixi, dahi şəxsiyyətləri ilə Şərqdə tanınan, dünyanın yaranışı qədər yaşı olan Naxçıvan torpağı əsrlərin sınağına sinə gərərək dövrümüzə qədər öz əzəmətini, vüqarını qorumuş, Türk torpağı olduğunu hifz eyləyə bilmişdir. Bu torpağın həm öz sinələrini yağıya sipər edib Əlincələşən, həm qanı axıb Araza çevrilən, həm də vətənin bir qarış torpağı uğrunda canından keçən övladları vətənin dar günündə daşa çevrilib, şad günündə gülə dönüb bu torpağın sinəsində əbədiləşiblər.***

Beləcə zamanın çətinliklərinə sinə gərə-gərə doğma Azərbaycanından ayrı düşən övlada çevrildi, Naxçıvan torpağı. Bir övlad kimi özünün də, anası Azərbaycanın da qürurunu qorudu, muxtar dövlət oldu. Azərbaycandan məkanca ayrılsa da, mənən bir oldu, Naxçıvanım!

Azərbaycanın qədim, zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmiş, orta əsrlərdə Şər-



*Samirə Həsənova,*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Müəllimlər İnstitutu*

qin böyük elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış, dövlət sivilizasiyasına dəyərli töhfələr bəxş etmişdir. Azərbaycan Atabəyləri-Eldəgəzlər dövlətinin paytaxtı olan, əsası Əcəmi Naxçıvani tərəfindən qoyulan memarlıq məktəbi ilə bütün Şərqdə tanınan və böyük səylə, yüksək bacarıqla, əsraraəngiz zövqlə inşa edilmiş tarixi abidələri ilə məşhur olan Naxçıvan torpağı bu gün də öz tarixiliyini, gözəlliyini qoruyub saxlayır və dünyanın ən əzəmətli, qədim diyarı kimi bura gələn insanları, qonaqları heyran qoyur.

Uzun illər gərgin siyasi mübarizələrin meydanına çevrilən qədim Naxçıvanın muxtariyyatının əsasları 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Azərbaycanın Şərqə açılan qapısı olmaqla zəngin dövlətçilik tarixinə malik olan Naxçıvan Muxtar Respublikası 9 fevral 1924-cü ildə yaradılmış və milli, qədim ənənələri qoruyub saxlamışdır.

Qədim mədəniyyəti, bərəkətli sərvəti, dahi şəxsiyyətləri ilə Azərbaycan Respublikasında xüsusi payı və yeri olan Naxçıvan Muxtar Respublikası bu gün istər iqtisadi-siyasi, istərsə də elm və mədəniyyət sahəsində tərəqqinin ən yüksək pilləsində dayanır. Belə ki, 1883-cü ildən fəaliyyət göstərən Naxçıvan teatrı Azərbaycan teatr mədəniyyətinə böyük töhfələr bəxş etmişdir. Şərqdə ilk akademiyanı və rəsədxananı ya-ratmış Nəsirəddin Tusi, qüdrətli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadə, Azərbaycan realist rəssamlıq məktəbinin banisi Bəhruz Kəngərli, ilk tarixi romanların müəllifi Məmməd Səid Ordubadi, böyük maarifçi və ədib Məhəmməd Tağı Sidqi, romantizm ədəbi cərəyanının görkəmli nümayəndəsi Hüseyn Cavid, dünyaca məşhur kimyaçı alim, akademik Yusif Məmmədəliyev, görkəmli publisist, dilçi-alim Məhəmməd ağa Şahtaxtlı, Xalq şairi Məmməd Araz, Xalq yazıçısı Hüseyn İbrahimov bu diyarın yetirmələridir. Qüdrətli sənətkar və alim kimi tanınan Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin ev muzeyləri, ədəbiyyat, tarix və xalça muzeyləri Naxçıvanın mədəni həyatında mühüm yer tutur.

> *Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.*
>
> ***Heydər Əliyev***

Bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas elm, mədəniyyət, təhsil və ictimai fikir mərkəzlərindən biri sayılır. Azərbaycan Milli Elmlər Akademiyasının prezidentləri, görkəmli kimyaçı alim Yusif Məmmədəliyev, yarımkeçiricilər fizikası məktəbinin yaradıcısı Həsən Abdullayev, məşhur riyaziyyatçı Fərəməz Maqsudov, informatika-radiasiya üzrə qəbul olunmuş elm xadimi, professor Mahmud Kərimov, akademik Məmməd Cəfər Cəfərov, professor Abbas Zamanov, akademik Teymur Kərimli və onlarla başqa görkəmli elm xadimləri Azərbaycan elminə, təhsilinə, ictimai fikrinin inkişafına yeni səhifələr yazmış, öz elmi potensialları və bacarıqları ilə Naxçıvanı tək Azərbaycanda deyil, bütün dünyada tanıtmışlar.

Böyük tarixi şəxsiyyətlər, alimlər, yazıçı və şairlər vətəni olan Naxçıvan Azərbaycanın elmi və mədəni inkişafına güclü təkan vermiş, görkəmli liderləri və elm adamları ilə məşhurlaşmışdır. Bunlardan biri də yüksək istedad və bacarığı ilə Azərbaycan poeziyasına dəyərli sənət inciləri bəxş edən görkəmli şairimiz Məmməd Arazdır. Şairin Naxçıvanın tarixindən, əsrarəngiz təbiətindən, təbii sərvətlərindən bəhs edən "Naxçıvanım mənim" adlı şeiri bizim üçün ana laylası qədər şirin, doğma və əzizdir:

Sinəmdə o yerin dağ
havasıdır.
Qaynar bulaqları qaynar
qanımda.
Mənim ürəyimin bir
parçasıdır
Doğma Şahbuzum da,
Naxçıvanım da.

Tarixə nəzər salsaq görərik ki, böyük tarixi hadisələrin, keşməkeşli günlərin şahidi olan qədim diyarımız həmişə olduğu kimi son illərdə də bütün çətinliklərə sinə gərərək düşmənlərin caynağından, hərisli yağı gözlərindən, məkrli əllərdən özünü qoruya bildi. Belə bir ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik, şücaət və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim diyarını düşmənlərdən - mənfur erməni təcavüzkarlarından öz canları




bahasına qorudu və qoruyur.

Xalqımızın böyük oğlu, Ümummilli lider Heydər Əliyevin 1990-cı ilin iyul ayının 22-də canından çox sevdiyi Naxçıvanına dönməsi, doğma el-obasına qayıtması çətin günlərini yaşayan Naxçıvanı dirçəltdi, burada yaşayan insanlarda sabaha, gələcəyə böyük inam hissi yaratdı. Bu illər Naxçıvan Azərbaycanda gedən siyasi proseslərə, o cümlədən milli azadlıq mübarizəsinə böyük təkan verdi. Müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin gücləndirilməsinə və tərəqqisinə, ərazilərimizin azad olunmasına Naxçıvandan başlanan böyük siyasi dalğanın təkanı daha təsirli oldu. Bunu xalqımızın Ümummilli lideri Heydər Əliyevin dərin, məzmunlu nitqində də görmək mümkündür: "Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuş, təşəbbüskar olmuşdur. Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır".

Bu gün Muxtar Dövlətimiz - Naxçıvan Muxtar Respublikası özünün ən dəyərli, yaddaqalan günlərini yaşayır. Muxtar diyarımız Azərbaycan Respublikasının Ümummilli lideri, tarixi şəxsiyyəti möhtərəm Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən əsasını qoyduğu müqəddəs vəzifələrin yerinə yetirilməsi ilə daha da çiçəklənir, möhkəmlənir və inkişaf, tərəqqi yolunda inamlı addımlar atır. Ulu öndərin yaradıb, xalqımıza ərmağan etdiyi siyasi, milli ideologiyanı, qarşıya qoyduğu müqəddəs vəzifələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.

Ötən illərlə müqayisə etsək, görərik ki, bu gün də Azərbaycanın mədəni və elmi həyatının tərəqqisinə Naxçıvan Muxtar Respublikası öz dəyərli töhfələrini vermiş, bu sahədə inkişaf yüksək səviyyəyə çatmış və böyük uğurlar qazanılmışdır. Tarixi və mədəni irsin qorunması və təbliği, mədəni-elmi potensialın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması xarakter hal almışdır. Azərbaycan mədəniyyətinə və elminə əsrarəngiz töhfələr bəxş etmiş naxçıvanlı alimlərin, şair və yazıçıların, görkəmli mədəniyyət xadimlərinin adları əbədiləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvanda səfərdə olarkən Naxçıvanda, o cümlədən bütün sahələrdə irəliləyən tərəqqini və inkişafı yüksək qiymətləndirərək demişdir: "...Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri, bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı...".

Onu da qeyd etmək lazımdır ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərpa olunmasında və 2023-cü il sentyabrın 19-20-si tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Naxçıvanın vətənpərvər, igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar. Onların şücaəti, qəhrəmanlığı kiçikdən böyüyə kimi hər bir kəsin dilində dastana dönmüş, məzarları isə bütün azərbaycanlılar, o cümlədən naxçıvanlılar üçün and yerinə, ziyarətgaha çevrilmişdir.

Qarabağda qazandığımız Şanlı Zəfərdən sonra 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri ilə bağlı təəssüratlarını bölüşən dövlətimizin başçısı İlham Əliyev demişdir: "Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, buradakı inkişafı görəndə çox sevinirəm. Bu mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir... Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır" ("Şərq qapısı" qəzeti, 17 may 2021-ci il, №87).

Prezident İlham Əliyev prezidentliyi müddətində 15 dəfə muxtar respublikada səfərdə olub. Bu səfərlərdə dövlət başçısı qədim Naxçıvanımızın sosial-iqtisadi və mədəni inkişafın sürətləndirilməsinə dair müxtəlif sərəncamlar, Dövlət proqramları imzalayıb. Ölkə başçısı tərəfindən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" və 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı qədim diyarımız Naxçıvanın zəngin dövlətçilik tarixində, ölkəmizin inkişafında mühüm yer tutduğunun bariz göstəricisidir.

İnanırıq ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası və onun ayrılmaz parçası olan Naxşıvan diyarı daim öz müstəqilliyini, azadlığını, bütövlüyünü qoruyub saxlayacaq, dünyada gedən bütün siyasi-iqtisadi və mədəni proseslərdə fəal, öndər olacaq. Elm, təhsil, idman, iqtisadi, siyasi, mədəni, demək olar ki, bütün sahələrdə Üçrəngli bayrağımız dünyanın hər yerində vüqarla, qürurla dalğalanacaq, bizlərin, bizi sevənlərin və gələcək nəsillərin birlik, azadlıq, bütövlük simvoluna çevriləcək.

# "Qarşıda duran məsələlər aydın şəkildə ölkə ictimaiyyətinə çatdırıldı"

"Yeddinci çağırış parlamentin yığıncağında ölkə Prezidenti cənab İlham Əliyev nitqində qarşıda duran əsas hədəflər və Azərbaycanda, eləcə də regionda baş verən proseslərlə bağlı çox geniş, proqram xarakterli çıxış etdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Hüseynov deyib. O bildirib ki, ölkə Prezidentinin çıxışının ən əsas prioritet istiqaməti ölkədə qarşıda duran başlıca məqsədlərlə bağlı idi ki, bu da birinci növbədə ölkənin müdafiə qüdrətinin daha da artırılması, ordumuzun daha da gücləndirilməsidir: "Bu istiqamətdə aparılan işlər və qarşıda duran məsələlər çox aydın şəkildə ölkə ictimaiyyətinə çatdırıldı. Bununla əlaqədar Azərbaycanın artıq özünün yeni silahlarını istehsal etməsi, ordunun yerli silah məhsulları ilə təmin edilməsi ilə bağlı fikirlər səsləndirildi. Eyni zamanda həm ordumuzu təmin etməklə yanaşı, həm də silahların ixrac edilməsi ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynayacaq və iqtisadiyyatımızı zənginləşdirəcək. Dövlət büdcəsinin və gəlirlərimizin artmasını təmin edəcək.Digər ən böyük və prioritet istiqamətlərdən biri Qarabağda gedən abadlıq və quruculuq işlərinin daha da artırılması, sürətləndirilməsidir. Məlumdur ki, bu istiqamətdə də çox böyük işlər həyata keçirilir. Bu ilin sonuna qədər torpaqlarımız işğaldan azad olunduğu dövrdən etibarən



19 milyard manat oraya xərclənəcək. Qarabağ Universiteti açılıb, soydaşlarımız ata-baba yurdlarına köçür, iş yerləri ilə təmin olunurlar.

Məcburi köçkün və soydaşlarımızın ata-baba yurdlarına qayıtmaq, eləcə də orada məşğulluğun təmin olunması və böyük iqtisadi potensiala malik olan, həm Qarabağ, həm Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına verəcəyi töhfələr də daha böyükdür"."Digər ən böyük istiqamətlərdən biri sosial tədbirlərin həyata keçirilməsi və gələn il minimum əmək haqqının artırılması ilə bağlı fikirlər səsləndirildi. Bu da 2025-in ilin büdcəsində öz əksini tapacaq. Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanması ilə bağlı ölkə Prezidenti bütün mənzərəni açıq şəkildə ictimaiyyətə çatdırdı. Ermənistan yenə riyakarlıq edir, sülh prosesini uzadır. Çox qəribədir ki, Ermənistana dəstək verən Minsk qrupu və bəzi Qərb ölkələri regionda müharibəni alovlandırmaq, yeni münaqişə ocaqları yaratmaq xülyasındadırlar. Əlbəttə, bu, qeyri-mümkündür. Bütün bunlarla yanaşı milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi prioritet olaraq qarşıda duran vəzifələrdən biridir.Bütövlükdə ölkə Prezidentinin çıxışı proqram xarakterli çıxışdır. Hesab edirəm ki, ölkə Prezidentinin indiyə qədər həyata keçirdiyi siyasət bütövlükdə Azərbaycan xalqının mənafeyinin müdafiəsinə yönəlib. Milli və dövlətçilik maraqlarının qorunmasına yönəlib. Ölkə Prezidentinin qarşıya qoyduğu hədəflərin xalqımızın birliyi sayəsində nailiyyətlə və uğurla həyata keçəcəyinə heç bir şübhə yoxdur" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# YAP Ağstafa rayon təşkilatının Ərazi Partiya Təşkilatında tədbir keçirilib

***26 sentyabr 2024-cü il tarixdə Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatı tərəfindən "Ağstafa DAİM" və "Baytarlıq idarəsi" Ərazi Partiya Təşkilatlarından olan fəalların iştirakı ilə "27 sentyabr - Anım Günü" dəyirmi masa keçirilib.***



İlk öncə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan "Ağstafa DAİM" Ərazi Partiya Təşkilatının sədr müavini Elvin Musayev bildirib ki, sentyabrın 27-si Azərbaycanda Anım Günüdür. Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir. Şəhidlərimizin qəhrəmanlığı gənclər üçün hər zaman örnək olub, bundan sonra da belə olacaqdır. Zaman ötəcək, torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canlarından keçərək şəhidlik zirvəsinə yüksələnlərin ömür yolu bizim üçün hər zaman ən böyük şərəf və qürur olacaqdır. Bu zirvəyə ucalanları yad etmək, onların xatirəsini hər zaman anmaq isə bizim hər birimizin müqəddəs borcudur. Daha sonra çıxış edən natiqlər - partiya fəalı Raqif Qurbanov, "Baytarlıq idarəsi" Ərazi Partiya Təşkilatının sədri Şəfayət Bağırov və YAP Ağstafa rayon təşkilatının əməkdaşı Aytən Məmmədli geniş çıxış edərək qeyd ediblər ki, Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər qürur mənbəyimizdir. Respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmənin günahsız mülki insanları hədəfə alması, çoxsaylı müharibə cinayətləri xalqımızı qələbə əzmini sarsıda bilmədi.

Vətən müharibəsinin təntənəsi təkcə işğal altındakı torpaqların yağı düşməndən qurtuluşu deyil, eyni zamanda, Azərbaycan xalqının milli kimliyinin nə qədər yüksək olduğunun bütün dünyaya nümayişidir. Bunun təməlində həmrəylik, milli qürur, ləyaqət və güc dayanır. Bu tarixi Qələbə ilə həm ədaləti, həm də milli ləyaqətimizi bərpa etdik. Həmin dövrdə hər bir Azərbaycan vətəndaşı ordumuzun və dövlətimizin ətrafında sıx birləşərək əlindən gələni əsirgəmədi. Beləliklə xalq-iqtidar-ordu birliyi düşmən üzərində şanlı Qələbəmizə gətirib çıxartdı. Bu Qələbə həm də hər bir azərbaycanlı üçün ən dəyərli şərəf tarixidir. Unutmayaq ki, müzəffər ordumuzun bu gün yazdığı tarix sabahımız üçün möhkəm bünövrədir.



# "Müəllim çatışmazlığı hələ də problem olaraq qalır"

*AYDİNLİQ GƏTİRİLDİ*

"Bəzi ucqar rayon və kəndlərdə müəllim çatışmazlığı hər il müşahidə olunan problemlərdəndir. Müəllimlər buna başlıca səbəb olaraq məhz ucqar ərazilərdə əməkhaqqının az olmasını əsas gətirirlər. Elm və Təhsil Nazirliyi tərəfindən bu cür vakant yerlər üçün həvəsləndirici olaraq "H1" və "H2" əmsalı tətbiq olunur". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Elçin Əfəndi deyib.

O bildirib ki, "H1"də məsafə rayon mərkəzindən 20 kilometrə qədərdisə, bu zaman müəllimlərin əməkhaqlarına əlavə 60 manat əlavə olunur: "H2" olduqda isə əsasən mərkəzdən 20 kilometr artıq olduqda tətbiq olunur və bu zaman da əməkhaqqından əlavə olaraq 160 manat ödənilir. Lakin görünən odur ki, bu məbləğlər bir çox təhsilverəni qane etmir. Buna görə də vakant yerlər tutulmur. Nəticədə isə Quba, Qusar, mərkəzi Aran rayonlarının bəzilərində, Tovuz, Gədəbəy istiqamətlərində bəzi məktəblərdə təəssüflər olsun ki, müəllim çatışmazlığını müşahidə edirik.

O cümlədən, cənub rayonlarında da eyni problemlə qarşı-qarşıya olan məktəblər mövcuddur. Bu məktəblərdə müəllim çatışmazlığı problemini aradan qaldırmaq üçün yeganə çıxış yolu zənnimcə, faktiki təyin olunan "H1", "H2"də qeyd olunan məbləğin bir qədər artırılması ola bilər. Məsələn, "H1" minimal olaraq 150 azn, "H2" əmsalında isə minimum 200 azn əməkhaqqından əlavə ödəniş təyin olunarsa, bu zaman həmin vakant yerlər tutula bilər".

***Səbinə Hüseynli***

# “Həmin proses bu gün də davam etdirilir”




**“2020-ci ilin 27 Sentyabr tarixi 44 günlük şanlı Vətən müharibəsinin basladığı, ordumuzun bütün cəbhə xətti boyu əks-hücuma keçdiyi gündür”. Bunu SİA-ya açıqlamasında hərbi ekspert Cəlil Xəlilov deyib.**

O bildirib ki, məhz 27 sentyabr tarixində Azərbaycan xalqı, Azərbaycan Ordusu, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev 30 illik erməni işğalına qarşı hərbi müstəvidə mübarizəyə başladı və bu mübarizə cəmi 44 gün ərzində yağı düşmənin məğlub olması, Ermənistanın hərbi potensialının 80 faizdən çoxunun darmadağın edilməsi ilə nəticələndi: ”Azərbaycan 44 gün ərzində düşməni torpaqlarımızdan qovub çıxardı. Bir sıra iri rayonlarımız - Ağdam, Laçın və Kəlbəcər isə bir güllə belə atılmadan, Prezident İlham Əliyevin diplomatik səriştəsi nəticəsində erməni işğalından azad edildi. Ermənistanın bu 30 ildə qurduğu bütün istehkamlar 44 gün ərzində yarıldı, hərbi texnikaları dəmir yığınına çevrildi. Bu, Azərbaycan hərb tarixinin ən böyük, ən möhtəşəm qələbəsi idi. Əminəm ki, illər, əsrlər keçsə də, bu qələbə Azərbaycan xalqının qan yaddaşında, Azərbaycan tarixində ən şanlı qalibiyyət kimi yaşayacaq, öz əzəmətindən heç nə itirməyəcəkdir. 27 Sentyabr həmişə tarixin yaddaşında qalacaq. 27 sentyabr Anım Günüdür. Belə bir günün təsis olunması heç şübhəsiz cənab Prezidentin, dövlətimizin şəhidlərimizə olan sevgi və ehtiramının nümunəsidir.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı hər zaman şəhidlərimizin təbliğinə, onların xatirəsinin əbədiləşdirilməsinə xüsusi diqqət yetirib və bu amil təşkilatın gələcək fəaliyyətində də əsas istiqamətlərdən biri olaraq qalacaqdır. Hesab edirəm ki, kimliyindən, sosial statusundan, harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq, hər kəs şəhidlərimizin xatirəsini uca tutmalı, onların xatirəsinin əbədiləşdirilməsi, müharibədə göstərdikləri qəhrəmanlıqların təbliğ edilməsi, gənc nəslə tanıdılması istiqamətində əlindən gələni etməlidirlər. Bu mənada, təşkilatımız gənclərin orduya hazırlanması ilə bağlı müxtəlif qurumlarda, təhsil ocaqlarında görüşlər keçirib. Hərbi qanunvericiliyi, Azərbaycanın tari-xini xüsusi təbliğ edirik.”

Onun sözlərinə görə, həmin proses bu gün də davam etdirilir: ”Biz həm xaricə dəvət olunur, həm də ölkəmizə qonaqlar dəvət edərək nəzərlərinə çatdırırıq ki, Azərbaycan ərazi bütövlüyünü təmin etməsi üçün mübarizə aparır, heç bir dövlətə ərazi iddiası yoxdur. Sadəcə, bugünkü gənclər deyil, gələcək nəsillər də bilməlidirlər ki, biz 8 Noyabr Zəfərinə görə kimlərə borcluyuq. Bu baxımdan Müharibə, Əmək və Silahlı Qüvvələrt Veteranlar Təşkilatı mütəmadi iş aparmaqda, orta və ali təhsil müəssisələrində, müxtəlif auditoriyalarda şəhidlərimizin və onların qəhrəmanlıqlarının təbliği ilə məşğul olmaqda, onların xatirəsinin əbədiləşdirilməsi üçün əlaqədar dövlət orqanları qarşısında məsələlər qaldırmaqdadır. Biz hər vasitə ilə çalışırıq ki, gənclərimiz şəhidlərimizi tanısın, onların döyüş yoluna dərindən bələd olsunlar. Bu, həm milli və hərb tariximizin öyrənilməsi, həm də qəhrəmanlıq ənənələrinin davam etdirilməsi baxımından əhəmiyyətlidir. Müharibə, Əmək və Silahlı Qüvvələrt Veteranlar Təşkilatı olaraq gələcəkdə bu istiqaməti daim diqqət mərkəzində saxlayacaq, şəhdilərimizin təbliği istiqamətində yeni-yeni addımlar atacaq, layihələr həyata keçirəcəyik”.

***Söylü Ağazadə***

# “Qərbi Azərbaycana da yollarımız açılacaq”

“Məlumdur ki, bu gün Cəbrayıla ilk köç reallaşıb. Bu xoş gün münasibətilə ilk növbədə bütün Cəbrayıl camaatını ürəkdən təbrik edirəm. Keçmiş məcburi köçkünlər artıq öz ata-baba yurdlarına qayıdır və bu gün də Cəbrayılın ilk sakinləri öz doğma şəhərlərinə dönürlər. Bu, olduqca böyük tarixi və mənəvi əhəmiyyəti olan bir hadisədir. Bu həmin insanların həyatında və bütövlükdə Cəbrayıl rayonunun Şərqi Zəngəzurun həyatında yeni bir səhifənin başlanması deməkdir və Cəbrayıllıların da yaddaşlarında gələcək xoşbəxt günlərin ilk günü kimi qalacaqdır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib.Deputat sözlərinə belə davam edib: ”44 günlük müharibə qurtaran kimi cənab Prezident Qarabağın da Şərqi Zəngəzurun bərpası ilə bağlı ardıcıl işlər görülməsi ilə əlaqədar tapşırıqlar verdi, daha sonra isə Böyük Qayıdışla bağlı birinci dövlət proqramı qəbul olundu və 2026-cı ilin sonuna qədər birinci dövlət proqramı icra olunacaq. Ondan sonra təbii ki, növbəti proqramlar da qəbul olunacaqdır. Birinci dövlət proqramının icra müddəti ərzində 140 min soydaşımızın (bu çox da ola bilər) ata-baba yurdlarına qayıtması nəzərdə tutulubdur.İlkin etapda əlbəttə infrastruktur layihələrinin həyata keçirilməsi həm zaman alır, həm də olduqca böyük vəsait alır. Amma artıq demək olar ki, biz bu sahədə olduqca böyük işlər görmüşük və cənab Prezident də Milli Məclisin 7-ci çağırış ilk iclasında bu barədə ətraflı danışdı.3 min kilometr təkcə Qarabağda və Şərqi Zəngəzurda yollar çəkilib, saysız-hesabsız körpülər, tunellər tikilib, elektrik və qaz təminatı həyata keçirilib.




Demək olar ki, infrastruktur layihələri bütün bölgəni əhatə etməkdədir. Bundan sonra qalır artıq bizim mənzillərin, sosial obyektlərin, şəhərlərin, kəndlərin planlaşdırılıb tikilməsi bu sahədə də böyük işlər gedir.Bu gün biz fəxr edirik ki, artıq Şuşada, Xankəndində, Qarabağ universitetində məktəblilər və tələbələr ilk tədris ilini doğma yurdlarında başladılar. İnşallah Cəbrayılda da bu ailənin ilk köç qaranquşlarıdır və gələn ilin sonuna qədər, gələn təhsil ilinə qədər isə çoxlu ailələr köçəcək. Orada da istər məktəbin fəaliyyətə başlaması, digər sosial infrastrukturun həyata keçirilməsi və əhalinin məskunlaşmasının artması həyata keçiriləcəkdir.İndiyə qədər bu məqsədlə dövlət büdcəsindən 19 milyard manata qədər vəsait xərclənibdir və gələn il də təxminən 5 milyard manata qədər vəsaitin ayrılması nəzərdə tutulur. 8 mindən çox soydaşımız artıq ata-baba yurdlarına dönüblər və bu proses də davam edir.

Oraya insanların köçməsi həm də yeni iş yerlərinin açılması, Azərbaycan iqtisadiyyatının güclənməsi deməkdir, genişlənməsi və insanların öz ata-baba yurdlarında xoşbəxt həyatlarını davam etdirməsi deməkdir.İnşallah, Zəngəzur dəhlizi də açılacaq, digər bölgədə qarşıya qoyulan məsələlər də öz həllini tapacaqdır. Baxmayaraq ki, Ermənistan hələ də hər vəchlə sülh müqaviləsini imzalamaqdan boyun qaçırır, bəhanələr gətirir, imperialist dövlətlər başda Fransa, Amerika Birləşmiş Ştatları, Kanada kimi xristian təsvikeşləri bölgədə vəziyyətin normallaşmasını istəmirlər. Amma Azərbaycanın gücü, qüvvəti və onun dostlarının səyi hesabına biz buna da nail olacağıq və qısa müddət ərzində təkcə Şərqi Zəngəzur və Qarabağdan olan keçmiş məcburi köçkünlər deyil, həm də Qərbi Azərbaycana da yollarımız açılacaq. Biz də ata-baba yurdlarımıza qayıtmaq imkanlarını əldə edəcəyik”.

***Ayşən Vəli***



MƏTANƏT

# Avropa Dilləri Günündə düşüncələr...

***26 sentyabr - Avropa Dilləri Günüdür. Günün məqsədi hər kəsi ikinci və ya üçüncü dil öyrənməyə təşviq etmək, həmçinin bir neçə dilbilmənin mədəniyyətlərarası anlayışı artırdığını aşılamaqdır. Avropada 225 yerli dil var və onların üçdə ikisi təhlükə altındadır. Qitədə ən çox yayılmış dillər - rus, alman, türk, ingilis, fransız, italyan dilləridir. Kim istəməz ki, öz ana dilindən başqa bir neçə xarici dil də bilsin. Hər kəs istəyər. Elə ölkəmizdə də bütün orta və ali məktəblərdə şagird və tələbələrə xarici dillər öyrədilir. Bu da çox əla.***

Lakin düşünürəm ki, hər kəs ən birinci öz ana dilini mükəmməl bilməli, onun qanunauyğunluqlarına riayət etməli, bundan sonra yeni bir dil öyrənməlidir. Çox təəssüf ki, bu gün gənclər arasında elələri var ki, Avropa dillərini ana dilindən gözəl bilir və onun qayda-qanununa ana dilindən çox riayət edir.

Ana dilimizin bugünkü vəziyyəti heç də ürəkaçan deyil. Dilimiz təhlükə qarşısındadır. Kim nə istəyirsə, onu bu dilin üzərində sınaqdan keçirir. Lüğətlər tez-tez dəyişilir, qrammatikanın başına gündə bir oyun açılır, başbilənlər var ki, sanki yarışa giriblər, bu söz belə deyil, belə yazılır, sən düz bilmirsən, mən bilirəm. Təəssüf doğuran hal isə odur ki, hər kəs öz bildiyini dərsliklərə də tətbiq edir və nəticədə dilimizə zərbə-zərbə arxasınca dəyir.

Bu gün sosial şəbəkələrdə ana dilimizə sitəm edən gənclərlə tez-tez rastlaşırıq. Yazışmalarında sözləri ixtisar edən, ”salam”ı ”slm”, ”təşəkkür”ü ”twk”, ”universitet”i ”uni”, edən, hələ bu bir yana, Azərbaycan dilində sözləri ingilis əlifbası ilə yazan, məsələn, ”Şəhla”nı ”Shahla”, ”sou”nu ”show”, ”şəhər”i ”sher”, ”baş”ı ”baw”, qarışıb”ı qarwb”, ”axşam”ı ”axwam” kimi ifadə edirlər.

Dərd tək bu olsa, deyərsən, yarıdır. Bəzi müasir gənclərimiz insan, şəhər, kənd, yazıçı, müəllimlərinin adlarını kiçik hərflə yazırlar. Demirəm ki, bunların böyük hərflə yazıldığını bilmirlər, bilənlər var, lakin yazı qabiliyyəti itib onlarda.

”Ə” hərfimiz gedib, yerinə ”e” gəlib. Görəsən səbəb nədir? Səbəblərdən əsas birini məktəblərdə inşa, imla, ifadə yazılarının azalmasında görmək olar. Bu, uşaqların yazı qabiliyyətini itirməsidir. Digər səbəblər isə məsuliyyətsizlik, tələskənlik, hörmətsizlikdir. Həm özünə, həm də qarşıdakına...

Bəzən düşünürəm ki, bir günlük bu telefonlar yığışdırılsa və yaxud internet dayansa, bu yeniyetmə-gənclərimiz görəsən əllərinə qələm alıb bir normal məktub yaza bilərlər? Heç inana bilmirəm. Yazarlar, lakin onu bizlər oxuya bilmərik. Hərfləyə-hərfləyə qalarıq, deyərik, Allah, görəsən bunlar nə demək istəyib. Necə ki, hazırda həmin o gənclərin yazdıqları məktubları anlamaqda çətinlik çəkirik. Hələ bunları da qoyaq bir kənara. Bu dilin günahı nədir? Zamanla rus dilini, sonra türk dilini qatmışıq dilimizə, indi də yarı rus, yarı türk, ingilisin də əlifbasından hərflər qatıb qarışıq bir dil düzəltmişik.

Küçədə, ictimai nəqliyyatda elə hey həm gənclərin, həm də orta yaşlı insanların türk sözlərindən istifadəsini görürsən. Adama bəzən elə gəlir ki, Azərbaycanda deyil, Türkiyədə yaşayır. Hətta buna televiziya və radio kanallarımızda aparıcıların, qonaqların danışığında da rast gəlirsən və düşünə-düşünə qalırsan ki, təbliğat-təşviqat mərkəzi olan televiziya və radioda da ana dilinə yamaq vurarlar?..

Yaxşı, bəs bu qayda, dilə bu cür yanaşma ilə hara gedirik? Nə vaxta qədər olacaq bu yolçuluq? Bizə bu yolda bir ”dayan, düşün, nə edirsən”,- deyən olacaqmı? Olur, bəzən çox olur, lakin qulaqlar karlaşıb ta. Kim nə bilir, onu da edir.

Di gəl, rus və ingilis dilinə verdiyimiz üstünlüyə bax. Bu dilləri öyrənmək üçün hazırlıqlara, kurslara getməyimizdən danışaq. Haqsız da deyilik. Çünki bu dillərdən birini bilməyənə indiki dövrdə lazımi yer yoxdur. Hətta bu dillərdən biri ali məktəblərə, hətta magistraturaya qəbul imtahanlarına da salınıb. Bilmirsənsə, ali təhsil müəssisəsinə daxil ola bilmir, kənarda qalırsan, ha ana dilini gözəl bil.

Bilək, öyrənək, dil bilməyin nəyi pisdir ki, lakin o halda öyrənək ki, ana dilini mükəmməl bildikdən, ona sayğı, ilə yanaşdıqdan sonra. Avropa Dilləri Günündə ana dilimizlə bağlı düşüncələrə dalmaya bilmədim. Çünki bu, bizim yaralı yerimizdir. Bu yaraların artıq üstü açılıb, qan süzür. Ona məlhəm qoyub bağlamağa, sağaltmağa çalışaq.

# "44 günün hər günü Azərbaycanın şanlı tarixidir"




"Torpaqlarımızı 30 ilə yaxın müddətdə işğal altında saxlayan Ermənistan uzun illər ərzində işğalçı siyasətini davam etdirmiş, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açmış, onların rahat yaşamasına imkan verməmişdir. 2020-ci il 27 sentyabr tarixində atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhə boyu Azərbaycan silahlı qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladılar. Nəticədə, hərbi qulluqçular ilə yanaşı Azərbaycanın 11 dinc sakini, o cümlədən, 2 uşaq həlak olmuşdur. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri verdi. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov bildirib. K.Bayramov qeyd edib ki, düşmən torpaqlarımızdan qovuldu, ədalət və beynəlxalq hüquq bərpa olundu: "Düşmən kapitulyasiya aktına imza atmağa məcbur oldu. Həmin gün xalqa növbəti müraciətində İlham Əliyev milli şüara çevrilmiş "Qarabağ Azərbaycandır və nida" ifadəsinin artıq bütün Qarabağı əhatə etdiyini və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu elan etdi: " nə oldu bəs status?

yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq!

Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!".Deputat diqqətə çatdırıb ki, qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın silahlı qüvvələrini məhv edərək tariximizə yeni bir gün yazdı və şəhidlərimizin qisası alındı. Əlbəttə ki, bu 44 günün hər günü Azərbaycanın şanlı tarixidir. XXI əsrin müharibəsini aparan Azərbaycan hərbi gücü, qüdrəti ilə dünyaya səs saldı. 44 günün hər bir dəqiqəsini, saatını Qələbə sorağı ilə böyük həyəcan və səbirsizliklə gözləyirdik. Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm olaraq müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.K.Bayramov xüsusi olaraq qeyd etdi ki, 44 günlük hərbi əməliyyatlar nəticəsində diz çökərək kapitulyasiya etmiş Ermənistan, eləcə də, Qarabağda olan separatizmin qalıqları nə bu bəyanatlardan, nə də müharibədən dərs çıxarmaq fikrində idilər. Qarabağda qalmış erməni silahlı dəstələri növbəti dəfə 2023-cü il sentyabrın 19-da genişmiqyaslı hərbi təxribat və terror hücumları törətdilər. Azərbaycan Ordusu bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, ölkəmizin Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Cəmi 23 saat 43 dəqiqə ərzində separatçılar ağ bayaraq qaldırmalı oldular və bununla da separatizmin kökü kəsildi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi, separatçıların əsas rəhbərləri həbs edildi. Üçrəngli bayrağımız Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda da ucaldıldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən, qətiyyətli siyasəti nəticəsində ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam təmin edildi.K.Bayramov əlavə edib ki, bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra da müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacaq. Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir. Anım Günü ölkədə gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması, ölkə vətəndaşlarının birliyinin daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. 27 sentyabr Anım Günündə bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir".







***Səbinə Hüseynli***



# Martinikdə fransız zorakılığı

Martinikdə müstəmləkəçiliyə qarşı, xüsusilə sosial və siyasi səbəblərdən əhali ayağa qalxıb. Artıq barrikadalar qurulur, hüquq-mühafizə orqanlarının zorakılığına qarşı müqavimət güclənir. SİA xəbər verir ki, polislərin dinc əhaliyə qarşı odlu silahlardan istifadə etdiyinə dair görüntülər də paylaşılır.Martinik əhalisi ciddi sosial problemlərdən, bahalıqdan və əhalinin gəlirlərinin çox az olmasından əziyyət çəkir. Onlara xarici ölkələrlə ticarət əlaqələri qurmağa icazə verilmir. Martinik əhalisinə yalnız materik Fransası ilə iqtisadi əlaqələr qurmağa imkan verilir. Martinikdəki bütün böyük ticarət şəbəkələri etnik fransızların monopoliyasında olduğundan onlar bu məhdudiyyətlərdən gəlirlərini dəfələrlə artırmaq üçün istifadə edirlər.Əhali Fransanın kolonial siyasətinə, hüquqlarının kobud şəkildə pozulmasına, kəskin sosial duruma qarşı etiraz edir, Fransadan kolonial siyasətə son qoyulmasını tələb edir, müstəqillik istəyirlər. Fransa hökumətinin Martinik torpaqlarında istifadə etdiyi zəhərli maddələr kənd təsərrüfatı torpaqlarını yararsız hala salıb, əhalinin sağlamlığına ciddi ziyan vurulub. Zəhərli maddələrin nəticəsidir ki, Martinik dünyada ən çox xərçəng xəstəliyindən əziyyət çəkən ərazidir.

# Elektrikli diş fırçası: ZƏRƏR VƏ FAYDALARI

***Son zamanlar elektrikli diş fırçaları çox populyarlaşıb. Üstəlik, qiyməti də normal diş fırçalarından çox daha bahadır. Bəs, populyar olan bu elektrikli diş fırçası necə istifadə edilməlidir? İstifadə edərkən nələrə diqqət edilməlidir? Faydaları və zərərləri nələrdir?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Adapter diş fırçaları son illərdə məşhurlaşıb və bir çox insan tərəfindən üstünlük verilir. Amma bu fırçaların üstünlükləri və mənfi cəhətləri var.

Elektrik yığımı edilə bilən diş fırçaları əl ilə olan diş fırçalarına nisbətən daha çox hərəkətli başlıq və fırça hərəkətləri təklif edir, nəticədə dişlərdə daha təmiz bir hiss yaranır. Bundan əlavə, bəzi modellərdə taymer funksiyaları var ki, lazımi vaxt ərzində fırçalaya biləsiniz. Bu, dişlərinizi daha təmiz və sağlam saxlamağa kömək edə bilər.

Bununla belə, elektrikli diş fırçalarının mənfi cəhətləri də var. Əvvəla, onlar mexaniki diş fırçalarından daha bahalıdır və vaxtaşırı dəyişdirilməsi lazım olan fırça başlıqlarına malikdir. Bundan əlavə, bəzi insanlar bu fırçaların güclü hərəkətləri səbəbindən diş ətlərində həssaslıq və qanaxma hiss edə bilərlər.

Elektrikli diş fırçaları ümumiyyətlə faydalıdır və dişlərinizi daha təmiz və sağlam saxlamağa kömək edə bilər. Bununla belə, bu fırçaların zərərlərini nəzərə almağınız və sizin üçün ən yaxşısını təyin etmək üçün diş həkiminizlə məsləhətləşməyiniz vacibdir.

## Yenidən doldurulan diş fırçalarından necə istifadə etməli?

Simsiz diş fırçaları mexaniki diş fırçalarından daha effektiv təmizləmə təmin edə bilər. Lakin düzgün istifadə edilmədikdə, diş ətinin qıcıqlanmasına və diş minasının aşınmasına səbəb ola bilər. Elektrikli diş fırçalarından düzgün istifadə etməklə diş sağlamlığınızı qoruya bilərsiniz.










ARAŞDIRMA

## Elektrikli diş fırçalarının istifadəsi ilə bağlı aşağıdakı məqamları nəzərə almağı unutmayın

Düzgün başlığın seçilməsi: Müxtəlif növ başlıqlar müxtəlif məqsədlər üçün istifadə edilə bilər. Məsələn, daha kiçik başlar çətin təmizlənən yerlər üçün daha uyğundur. Həssas diş ətləri olanlar üçün daha yumşaq tüklü başlar tövsiyə olunur.

Düzgün sürət və təzyiq: Elektrikli diş fırçalarının sürət və təzyiq parametrləri var. Dişlərinizi fırçalayarkən həddindən artıq təzyiq göstərməyin və fırçanı yavaş-yavaş hərəkət etdirin.

Düzgün fırçalama vaxtı: Diş fırçalama müddəti ən az 2 dəqiqə olmalıdır. Bəzi elektrikli diş fırçalarında taymer var, siz fırçalama vaxtını izləmək üçün bu funksiyadan istifadə edə bilərsiniz.

Daimi adapter: Elektrikli diş fırçalarını mütəmadi doldurmalısınız. Ümumiyyətlə, şarj müddəti təxminən 24 saatdır və tam doldurulmuş bir fırça orta hesabla 1 həftə istifadə edilə bilər.

Müntəzəm dəyişdirmə: Elektrikli diş fırçası başlıqları mütəmadi olaraq dəyişdirilməlidir. Başlıqlar tüklərin köhnəlməsi, effektivliyini itirməsi və bakteriya çoxalması səbəbindən ən azı 3 aydan bir dəyişdirilməlidir.

Bu məsləhətlərlə siz elektrik diş fırçalarından düzgün istifadə edərək diş sağlamlığınızı qoruya bilərsiniz. Ancaq unutmayın ki, diş fırçalamaq təkcə dişləri təmizləmək deyil, həm də diş əti sağlamlığı üçün vacibdir. Bu səbəbdən dişləri fırçalamaqla yanaşı, diş ipindən istifadə etmək və müntəzəm olaraq diş həkimi müayinəsi də vacibdir.

## Diş fırçaları hansı hallarda zərər verir?

Bəzi insanlarda elektrikli diş fırçalarının həddindən artıq istifadəsi diş minasının aşınmasına səbəb ola bilər. Bundan əlavə bəzi diş əti xəstəliklərində dişlərin fırçalanması zamanı yaranan titrəmələr diş ətinə zərər verə və diş həssaslığına səbəb ola bilər.

Bundan əlavə, diş fırçası başlıqlarının mütəmadi olaraq dəyişdirilməməsi elektrikli diş fırçasının effektivliyini azalda bilər və zərərli ola bilər. Diş fırçası başlığı köhnəlirsə, bu, dişlərinizə zərər verə bilər və onu lazımi səviyyədə təmizləməyə bilər.

Buna görə də, elektrikli diş fırçalarından istifadə edərkən dişlərinizdə aşınmalar, diş ətində narahatlıq və ya həssaslıq hiss edirsinizsə, diş həkiminizə müraciət etməyiniz tövsiyə olunur. Həmçinin, diş fırçasının başlarını mütəmadi olaraq dəyişdirməyi və düzgün istifadə üsullarına əməl etməyi unutmayın.

## Elektrikli diş fırçasının zərəri varmı?

Elektrikli diş fırçaları düzgün istifadə edil-



dikdə ümumiyyətlə zərərli deyil.

Elektrikli diş fırçaları, xüsusilə həddindən artıq güclü rejimdə istifadə edildikdə, diş minasına zərər verə və diş həssaslığına səbəb ola bilər. Bundan əlavə, sərt tüklərdən istifadə diş ətlərinin çəkilməsinə və diş həssaslığına səbəb olar. Buna görə də diş fırçası seçərkən yumşaq tüklü model seçmək vacibdir.

Bundan əlavə, diş fırçaları düzgün təmizlənmədikdə, bakteriya və mikroblar diş fırçasının başlığına və fırçanın içərisinə yerləşə bilər. Bu ağız infeksiyalarına və digər sağlamlıq problemlərinə səbəb ola bilər. Buna görə də diş fırçanızı mütəmadi olaraq təmizləməyiniz və ya başını tez-tez dəyişməyiniz tövsiyə olunur.

Elektrikli diş fırçaları zərərli olmasa da, düzgün istifadə və təmizlik vacibdir. Bundan əlavə, diş həssaslığı və ya digər ağız sağlamlığı probleminiz varsa, hansı diş fırçasının sizin üçün ən yaxşı olduğunu öyrənmək üçün diş həkiminizlə məsləhətləşməyiniz tövsiyə olunur.

***Ayşən Vəli***

# *Turizm sektoru:* imkanlar, perspektivlər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*









The Old City with Flame Tower in the background, Baku, Azerbaijan, June 20, 2024. Photo by Aziz Karimov/Getty Images.

***Hər bir insanın yaşadığı dünyanın gözəlliyindən həzz almaq hüququ var və turizm sənayesi insanlara bu imkanı verir. 27 sentyabr Ümumdünya Turizm Günü səyahətçilərin, turistlərin və bu sektorda çalışanların bayramıdır. Bu gün dünyanın 150-dən çox ölkəsində, o cümlədən ölkəmizdə də qeyd olunur. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı tərəfindən müəyyən edilən Ümumdünya Turizm Günü, turizmin beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini vurğulamaq və maarifləndirmək məqsədilə 1980-ci ildən etibarən qeyd edilir.***

Turizm dünyanın mədəni sərvətlərini kəşf etmək, fərqli mədəniyyətlər görmək, öz sərvətini tanıtmaq, iqtisadiyyatını gücləndirmək imkanı verir. Bir ölkənin tarixi, incəsənəti, mətbəxi və adət-ənənələri ilə tanış olmaq insanları sosiallaşdırır, mədəni əlaqələri gücləndirir, fərqli mədəniyyətləri kəşf edtirir, yeni dostluqlar qurdurur. Eyni zamanda, turizm yerli iqtisadiyyata təkan verir, yerli əhalinin məşğulluğunu yaradır, ölkənin inkişafına töhfə verir. Ümumdünya Turizm Günü bu sektorun davamlı inkişafını təşviq etmək üçün mühüm fürsətdir.

Hazırda turizm sektoru iqtisadiyyata və məşğulluğa verdiyi töhfələrlə ölkələrin rifah səviyyəsinin yüksəldilməsində mühüm alətə çevrilib. Qlobal turizmin miqyası və onun digər sektorlara təsiri hər gün daha qabarıq görünür. Turizm dinamik və çox yönlü quruluşu ilə təkcə dünyanı və cəmiyyətləri birləşdirən ən böyük və ərzsiz güc deyil, həm də sərhədləri aradan qaldıran, dostluğun və birliyin ən çox müşahidə edildiyi sektordur. Məlumat üçün qeyd edək ki, dünyanın ilk səyahət agentliyini 1841-ci ildə ingilis sahibkar Tomas Kuk açıb. Agentlik 178 il fəaliyyət göstərib və 2019-cu ildə ləğv edilib.

Elə ölkələr var ki, iqtisadiyyatı tamamilə turizmdən asılıdır. Bu ölkələr əhalisi az olan və ÜDM-i aşağı olan kiçik dövlətlərdir ki, onların əhəmiyyətli bir hissəsi turizmdən gəlir. Belə ölkələrdən Malta, Xorvatiya, Tailand, Yamayka və İslandiyanı misal göstərmək olar. Həmçinin kütləvi turizmin qəti əleyhinə olan ölkələr var. Bu ölkələrin ərazisinə girmək çox çətindir, orada qalmaq isə çox bahadır. Məsələn, Çin və Hindistanla həmsərhəd olan Butanda viza yalnız akkreditə olunmuş agentlik tərəfindən verilə bilər, bu da dünyada çox azdır. Bir turist üçün Butanda maksimum qalma müddəti 15 gündür. Hər gün turist vergisi ödəməlisiniz - mövsümdən asılı olaraq gündə təxminən 200 dollar. Kosmik turizm hazırda dünyada fəal şəkildə inkişaf edir və bu, bu sahədə ən bahalı sənayedir. Orbitə biletin qiyməti 20 - 40 milyon dollar arasında dəyişir.

Azərbaycanın turizm imkanları da şaxəlidir. Xüsusilə müalicəvi turizm sektorunda ölkəmizin böyük potensialı var. İşğaldan azad edilən ərazilərdəki müalicəvi bulaqlar, Naxçıvanın Duz dağı, Naftalan nefti bu baxımdan gəlirli sahələrdir. Kəlbəcərdə, 34 hektar ərazidə salınan "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malikdir. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılıb. Qeyd edək ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb.

İstisu işğaldan öncə kurort şəhərciyi sayılırdı, səliqəli sanatoriya, yeni yaşayış binaları, kurortu Azərbaycanın iri şəhərləri ilə birləşdirən yolları vardı. Kurortdan 200 metr hündürlükdə təbii meydança var idi, bu Yak-40 və An-2 təyyarələrinin enməsi və qalxması üçün optimal şəkildə uyğunlaşdırılmış platforma idi. Onların köməyi ilə yerli sakinlər və sanatoriyanın qonaqları daşınırdı. 1970-ci ildə SSRİ hökumətinin qərarı ilə İstisu kurortu ümumittifaq əhəmiyyətli kurortlar siyahısına daxil edildi. Arxiv sənədlərinə və 80-ci illərin statistik məlumatlarına görə, hər mövsüm bura dünya ölkələrindən 50 min insan müalicə almaq üçün gəlirdi.

"İstisu"nun termal bulaqlarından gələn sular xroniki kataral, mədə və bağırsaqların funksional pozğunluqları, xroniki qaraciyər, öd kisəsi, podaqra, piylənmə və yüngül şəkərli diabetlə mübarizədə təsirli idi. İstisu kurortunda mədə-bağırsaq xəstəliyinə, maddələr mübadiləsi pozğunluqlarına, sinir sistemi, hərəkət orqanları və ginekoloji, uroloji xəstəliklərə tutulanlar müalicə oluna bilirlər. Sanatoriya bu gün də insanlara xidmət edə bilərdi, əgər 30 il erməni işğalı altında qalıb xaraba qoyulmasaydı.

Əgər işğalda olmasaydı bu ötən 30 il ərzində "İstisu"da kurort imkanlarının genişləndirilməsi, xarici turistlərin cəlb edilməsi halında Azərbaycan iqtisadiyyatı üçün ciddi gəlir əldə edilərdi. Məsələ təkcə "İstisu"da deyil. Kəlbəcərə dünya şöhrəti qazandırmış 53 çıxımlı Bağırsaq, Yuxarı İstisu, Aşağı İstisu, Keşdək və s. kimi ümumi istismar ehtiyatları gündə 3 min kubmetrdən çox olan termal və mineral su yataqları mövcuddur. 1980-ci illərdə sanatoriyanın tərkibində sudoldurma zavodu tikilib. Burada yerləşən mineral su yataqlarından gündə 800 min litrdən artıq mineral su istehsal edilirdi.

Yeri gəlmişkən, Kəlbəcərin relyefi dünyanın ən çox tələb olunan istirahət məkanlarının, heyrətamiz kanatların inşasına, qış əyləncə növlərinin yaradılmasına imkan verir. Ekspertlər hesab edir ki, yaxın illərdə Kəlbəcər Qafqazın ən böyük turizm mərkəzi ünvanını ala bilər. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafı ilə bağlı planlar olduqca genişdir. Yaxın 4-5 ildə daxili və xarici turistləri nəzərə alaraq, Qarabağın 1 milyon insanı qonaq qəbul edə biləcək potensiala sahib olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasındakı Duzdağ Fizioterapiya Mərkəzi həm də unikal müalicə vəd edən turistik sağlamlıq obyektidir. 1979-cu ildə 50 çarpayılıq xəstəxana kimi Naxçıvan Duz mədəni bazasında, fəaliyyətə başlayan bu möcüzəvi məkan hazırda 474 çarpayılıq yer ilə fəaliyyət göstərir. Astma xəstəliyinin müalicəsi üçün çox sadə və təbii üsulla müalicə tətbiq edilən bu məkana tələbat hər il artır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin təqribən 10 faizi allergik xəstəliklərdən əziyyət çəkir ki, bunun da 1,5-2 faizi bronxial astmanın payına düşür, bu da orta hesabla 15 milyon nəfər deməkdir. Bir çox xəstəliklərin, həmçinin bronxial astmanın müalicəsində duz şaxtası şəraitində aparılan müalicə çox effektivdir.

Sağlamlıq turizmində əhəmiyyətli paya sahib olan məkanlardan biri də Naftalandır. Naftalan neftinin möcüzəsi dünyaya bəlli olandan bu günədək - təxminən XII-XVIII əsrlərdən bəri bu möcüzəvi məkan haqqında olduqca çox danışılır, haqqında əsərlər yazılıb. Müalicəvi xassəsinə görə dünyada yeganə neft olan Naftalan nefti Azərbaycan Respublikasında Gəncə şəhərindən 50 km aralı Murov dağ silsiləsinin ətəyində yerləşir. Naftalan nefti dünyada yeganə neftdir ki, öz müalicəvi əhəmiyyətinə görə əfsanəvi xarakter daşıyır, həmçinin fiziki-kimyəvi xassəsinə görə başqa neftlərdən fərqlənir. Sovet dövründə müalicə üçün 15 ölkədən insanlar bura axışırdı. İl ərzində müalicəyə gələn 75 min insanın demək olar ki hamısı öz ölkəsinə sağalıb gedirdi. Bu dünyada rekord göstərici hesab olunur. Dünyanın elə bir kurort məkanı yoxdur ki, orada 92 faiz yaxşılaşma əldə edilsin. Amma bu bir həqiqətdir ki, Naftalana gələn hər 100 nəfərdən 92-si sağlamlığına qovuşurdu.

Sağlamlıq turizminə görə gələcək vəd edən bu məkanlar sayəsində Azərbaycan iqtisadiyyatı turizm sekorunda paya sahibdir. Yaxın-uzaq ölkələrdən ölkəmizi səyahətə gələn turistlər onun sağlamlıq turizmindən də istifadə edir. Qarabağın yenidən dirçəldilməsi Azərbaycanın turizm sektoruna da canlanma gətirir.

***Lalə Mehralı***

SON SƏHİFƏ

# SƏS

27 sentyabr 2024-cü il

# Taksi tapmaq niyə bu qədər çətinləşib?






*SƏBƏBLƏR AÇIQLANDI*

Məlumdur ki, son günlər insanlar taksi qıtlığından şikayətçidirlər. Bəs, buna səbəb nədir? Niyə taksi tapmaq bu qədər çətinləşib. SİA mövzu ilə bağlı nəqliyyat üzrə ekspert Elməddin Muradlının fikirlərini öyrənib. Onun sözlərinə göəə, taksi fəaliyyətində belə problemlər artıq hiss olunmaqdadır: "Çünki əvvəlki dövrə nisbətən taksilərin sayı təkcə "Bolt"da yox, digər şirkətlərdə də azalıb. Bu azalma nəticəsində də sifarişlər gecikir və yaxud da bəzən sürücülər görürsünüz nağd ödəniş olmayanda sərnişinləri, yəni sifarişçiləri məcbur edirlər, ya zəng edib xahiş edirlər ki, imtina etsin ki uzaqdayam və s. Amma bu düzgün deyil. Bu məsələ hardasa nəzarət altında olmalıdır ki, tənzimlənsin. Belə özbaşınalıqlar olmamalıdır.

Çox təəssüf sürücülər bəzən başlayıblar belə şeylərdən istifadə ediblər. Vətəndaşlar dövlət qurumundan narazı qalır ki, "Niyə bunu tənzimləmirsiniz?". Hər bir halda sifariş edilirsə ya nağd olsun, ya bank kartı ilə olsun sürücü bu xidməti, sifarişi yerinə yetirməlidir. Amma bizdə yanaşma biraz fərqlidir. Sürücülər müxtəlif bəhanələr gətirməklə nağd ödənişin onlara sərf etmədiyini deyirlər və sifarişdən imtina olunması üçün az qalırlar sərnişinə yalvarsınlar ki, bundan imtina et.

Bunlar biraz problem yaradan situasiyalardır, olmamalıdır, olmaması üçün də nəzarətə ehtiyac var. Hələlik indi dövlət qurumları gözləyir ki, bu sahədə islahatlar tam başa çatsın, taksi parkı yenilənsin. Baxaq görək nə qədər yeni avtomobil bazara daxil olub və s. Sürücülər də belə güman edirlər ki, vəssalam nəzarət yoxdur istədiklərini edə bilərlər. Bu belə deyil. Nəzarət olacaq və bu proses başlayacaq. Ona görə bu qaydalara öyrənsinlər".

***Ayşən Vəli***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK

Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Bəzi ərazilərdə yağış yağacaq, çaylarda sululuq artacaq

*XƏBƏRDARLIQ*



***Sentyabrın 28-i gündüzədək bəzi rayonlarda qeyri-sabit hava şəraitinin davam edəcəyi, fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.***

Bildirilib ki, ayrı-ayrı yerlərdə (Naxçıvan MR, Qazax-Gəncə, Qarabağ və Şərqi-Zəngəzur, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi Aran, Lənkəran-Astara) leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.

# "Geyim qaydalarının tətbiqi tələbənin şəxsiyyətini boğmamalıdır"

*MÜNASİBƏT*



"Müəllimin bir tələbənin geyimi haqqında şəxsi sosial media hesabında paylaşım etməsini peşə etikası baxımından düzgün hesab etmirəm". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elnur Aydın deyib. O bildirib ki, tələbələrin geyimi ilə bağlı müəyyən qaydaların olması universitetdə sağlam mühitin qorunması baxımından əhəmiyyətlidir: "Burada ikili mövqe ola bilər. Geyim qaydalarının olması tələbələrin şəxsi azadlıqlarını məhdudlaşdırmamalıdır. Geyim qaydalarının tətbiqi tələbənin şəxsiyyətini də boğmamalıdır. Onun daşıyıcısı olduğu mədəniyyətə hörmət edilməlidir.

Universitetlərdə tələbələrin geyim qaydaları tez-tez müzakirə mövzusu olur. Geyim qaydaları hər bir xalqın, cəmiyyətin dəyərlərinə bağlıdır. Universitetlərin daxili qaydalarına geyim qaydaları da daxil olmalıdır. Burada müəyyən qaydalar və normalar mövcud olmalıdır ki, hər kəs istədiyi formada məsələyə münasibət bildirməsin.

Universitetlər tələbələrdən müəyyən qaydalara uyğun rəsmi geyim tərzi tələb edə bilər. Bəzi universitetlər isə geyimə sərbəst yanaşa bilər. Hər hansı bir şəxsin geyimi və yə şəxsi məlumatlarının sosial şəbəkədə müzakirəyə çıxarmağını doğru addım hesab etmirəm. Geyim və digər etik qaydaların müzakirəsi qarşılıqlı hörmət və anlayış şəraitində olmalıdır. Qaydalar da dəqiq və aydın formada olmalıdır ki, müəllim də, tələbə də bu qaydalar çərçivəsindən kənara çıxmasın".

***Söylü Ağazadə***


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 2700**